Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 MAY 2020-ci il

№ 73 (4204)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ABŞ-ın MİNNESOTA ŞTATI ERMƏNİPƏRƏST MÖVQEYƏ KEÇDİ - ƏDALƏT VƏ HÜQUQA ZİDD OLAN AZƏRBAYCAN DÜŞMƏNÇİLİYİ...

■ səh. 8 ■



■ səh. 13 ■

## Vətəndaşlar Azərbaycanda pandemiyanın ikinci dalğasını anbaan yaxınlaşdırır - Qərargahın xəbərdarlığı reallaşa bilər...

Azərbaycanın hərbi gedişləri Ermənistanı dalana dirəyir - işğalçı ölkədə "mərhələli həll"dən başqa yol qalmadığı ən müxtəlif səviyyələrdə etiraf olunur...

■ səh. 9 ■

Həbs edilmiş icra başçılarının qanunsuz topladıqları əmlakların taleyi...

■ səh. 5 ■

Rəsmi Moskva uydurma erməni genosidinin "105 illiyinə" hər hansı səviyyədə reaksiya vermədi - erməni elitası şokda...

■ səh. 8 ■

Avropanın qaz bazarı yenə Azərbaycanın ümidinə qaldı

■ səh. 14 ■

Ermənilər son 30 ildə 3 milyona çata bilmir - azərbaycanlıların zorla çıxarılması ermənilərin artımına mənfi təsir göstərib...

■ səh. 11 ■

Çin Avropaya yeni dəmir yolu marşrutu açdı - ermənilərin sevinci əbəsdir...

■ səh. 10 ■

Pandemiya Paşinyan hakimiyyətinin sonunu gətirir - ölkədə "infeksiya onun özü və hakimiyyəti üçün ölümcül olacaq" fikri hakimdir...

■ səh. 12 ■

Azərbaycanda kütləvi mənafelərə uyğun daha bir sosial addım - kredit borclularına ünvanlı yardım...

■ səh. 2 ■



Qoşulmayan ölkələrin videokonfransının dünyada Qarabağ probleminin həllinə daha münbit şəraitlər yaratmaq gücü...

■ səh. 3 ■

Ermənistan mediası mütləq əksərən Paşinyana qarşı - tək aprel monitorinqinin dəhşətli nəticəsi...

■ səh. 10 ■



İcra başçıları arasında rüşvət, korrupsiyaya meylin illər sonra özünü göstərməsi...

■ səh. 5 ■

■ səh. 2 ■

"Videokonfranslar dövlətlərarası inteqrasiyada yeni məzmunlu mərhələ açır"



■ səh. 7 ■

Lukaşenko MDB dövlət rəhbərlərini Minskdə 9 May Qələbə paradına çağırdı - Azərbaycanın iştirak məsələsi...



■ səh. 6 ■

Konstruktiv azlıq partiyalarının icra başçısı təyinatı üçün kadrlar korpusu varmı...



■ səh. 15 ■

Hotellərdə yoluxma risqi mənbələrindən birini TƏBİB xəbərdarlıq etdi...



■ səh. 15 ■

İctimai nəqliyyatda maska taxmayanların cəzalandırılması...





# Prezident İmişlinin icra başçısını vəzifəsindən azad etdi

**Prezident İlham Əliyev Vilyam Hacıyevin İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.** Sərəncama əsasən, Vilyam Fərhalı oğlu Hacıyev İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

# Aydın Quliyev: "Videokonfranslar dövlətlərarası inteqrasiyada yeni məzmunlu mərhələ açır"

**"Qoşulmayan Ölkələrin Təmas qrupunun pandemiya ilə bağlı Azərbaycanın təşəbbüsü əsasında ilk videokonfransının keçirilməsi əlamətdar beynəlxalq hadisədir. Azərbaycan öz sədrliyi dövründə bu qurumun tarixində ilk dəfə videokonfrans keçirməklə bir daha sübut etdi ki, üzvü və rəhbəri olduğu bütün beynəlxalq təşkilatların fəaliyyətinə yeniliklər gətirir, beynəlxalq təşkilatların işini və strukturunu təkmilləşdirir, yaradıcı və mütərəqqi yanaşma ortaya qoyur.**




Əvvəlcə türk dövlətlərinin tarixində ilk videokonfransın keçirilməsi təşəbbüsünün çox uğurlu nəticələr verməsi Azərbaycana növbəti uğurlu addımları atmaq imkanı verdi". Bunu SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Qoşulmama Hərəkatının videokonfransı Azərbaycanın siyasətinin və Prezidentin təşəbbüslərinin dünya dövlətləri tərəfindən mötəbər qarşılandığına növbəti sübut oldu: "Dünya dövlətləri yaxşı halda öz daxillərində pandemiyanın nəzarət altına alınmasına daha çox səy göstərdikləri halda, Azərbaycan həm də hamının səylərinin birləşdirilməsi üçün çox əhəmiyyətli təşəbbüslər göstərdi və mühüm nəticələr əldə etdi. Bu gün koronovirusla mübarizədə dünyanın imkanlarının birləşdirilməsinə geniş yol açılıb ki, bu perspektivin reallaşmasında Azərbaycanın və Prezident İlham Əliyevin böyük payı var. Azərbaycan Prezidentinin videokonfransda etdiyi təkliflər üzrə birgə fəaliyyətlərin göstərilməsi bəşəriyyətin bu bəla ilə səmərəli mübarizəsinin daha təkmil qurulmasına öz müsbət təsirini göstərəcək. Qoşulmayan 120 ölkənin timsalında dünyanın yarıdan çoxu Azərbaycanın uğurlu mübarizə metodları ilə təmas və ondan bəhrələnmək imkanı əldə etdi. Məhz bu qrup ölkələrin ehtiyacları üçün Azərbaycanın ÜST-ə əlavə 5 milyon dollar yardım ayırması ölkəmizin beynəlxalq humanitar məsələlərin həllinə əməli dəstək olmaq iradəsini bir daha nümayiş etdirdi".

Politoloq bildirib ki, Ermənistan kimi ölkələrin cürbəcür yalanlar uyduraraq beynəlxalq maddi fayda götürməyə çalışdığı vaxtda Azərbaycan dünya ölkələrinə yardım əli uzadır, sülh və təhlükəsizliyə real töhfələr verir:"Videokonfransda mötəbər beynəlxalq və regional təşkilatların rəhbər və təmsilçilərinin iştirakı və çıxışları Azərbaycan Prezidentinin çağırışlarına həssas yanaşmadan xəbər verir. BMT, Avropa İttifaqı, Afrika Birliyi, ÜST və sair kimi təşkilat rəsmilərinin virtual konfransda iştirakı beynəlxalq əhəmiyyətli faktdır. Bu fakt sübut edir ki, beynəlxalq təşkilatlar Azərbaycanın inteqrasiya və humanitar yardım proseslərində səmimi iştirakına inanırlar".

Aydın Quliyev vurğulayıb ki, Azərbaycan Prezidentinin pandemiyaya qarşı BMT miqyasında videokonfransın keçirilməsi təklifinin dəstəklənməsi xüsusilə əhəmiyyətlidir:

"Dövlətlərin yekdilliklə bu təklifə dəstək verməsi onu təsdiq edir ki, Azərbaycan bəşəriyyətin ümumi mənafeyinə uyğun istənilən məsələ ətrafında qlobal dəstək prosesi qura bilər və onu sona çatdıra bilər. Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilmiş videokonfrans müxtəlif regional və qlobal miqyaslı beynəlxalq təşkilatlar arasında əlaqə və əməkdaşlıq münasibətlərinin gücləndirilməsində də öz təsirini göstərir. Azərbaycanın təşəbbüs etdiyi videokonfranslar dövlətlər və təşkilatlararası inteqrasiyada yeni məzmunlu mərhələ açır".

# Azərbaycanda kütləvi mənafelərə uyğun daha bir sosial addım - kredit borclularına ünvanlı yardım...

**Xəbər verildiyi kimi, kredit borcu olan vətəndaşlar ünvanlı dövlət sosial yardımı ala biləcəklər. Bunu ƏƏSMN-in şöbə müdiri Babək Hüseynov bildirib. O qeyd edib ki, kreditlərin ünvanlı sosial yardımın təyin edilməsində heç bir əhəmiyyəti qalmayacaq:**




"Bəzi vətəndaşlarla əmək müqavilələri bağlananda onlar kağız üzərində bağlanır və elektron əmək müqavilələri bildiriş sisteminə işlənməyib. Biz də bu zaman vətəndaşın işləyib-işləmədiyini bilmirik. Hazırda bu problem həll olunur".

Kredit borcu olan vətəndaşlara ünvanlı sosial yardımın verilməsi ekspertlər tərəfindən də müsbət qarşılanır.

## *Aytəkin Kamranqızı: "Kredit borcu olan vətəndaşlara ünvanlı sosial yardımın verilməsi təqdirəlayiqdir"*

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, kredit borcu olan vətəndaşlara ünvanlı sosial yardımın verilməsi təqdirəlayiqdir: "Elə ailələr var ki, onlar bankdan kredit götürsələr də, onu qaytarmaqda çətinlik çəkirlər. Bu kimi ailələrə dəstək olmaq məqsədilə onlara ünvanlı sosial yardımın verilməsi düzgün qərar olar".

*"Bu məsələ xüsusi komissiya tərəfindən araşdırılmalı, həqiqətən də krediti ödəməkdə çətinlik çəkən şəxslərə..."*

Həmsöhbətimiz onu da əlavə etdi ki, kredit borcu olan şəxslərə ünvanlı sosial yardımın təyin edilməsi xüsusi komissiya tərəfindən araşdırılmalıdır: "Bəzi şəxslər ünvanlı sosial yardım almaq üçün krediti ödəməyəcəklər. Və ya hər kredit götürən şəxsə də ünvanlı sosial yardım verilməməlidir. Bu çox həssas məsələdir. Bu məsələ xüsusi komissiya tərəfindən araşdırılmalı, həqiqətən də krediti ödəməkdə çətinlik çəkən şəxslərə ünvanlı sosial yardım verilməlidir".

*Günel CƏLİLOVA*

**Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən uğurlu daxili və xarici siyasət Azərbaycanın beynəlxalq aləmdəki reytinqini getdikcə artırır. Koronavirus pandemiyasına qarşı aparılan mübarizədə də Azərbaycan öz vətəndaşlarının sağlamlığının qorunması baxımından dünyada nümunəvi dövlətlər sırasında yer aldı.**

# Qoşulmayan ölkələrin videokonfransının dünyada Qarabağ probleminin həllinə daha münbit şəraitlər yaratmaq gücü...




## *Məhəmməd Əsədullazadə: "Tədbirdə Prezident İlham Əliyevin çıxışı xüsusi əhəmiyyət kəsb edir"*

Digər tərəfdən, ölkəmiz bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edir. BMT-dən sonra dünyada ikinci ən böyük siyasi platforma sayılan Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkənin yekdil qərarı ilə Azərbaycanın bu böyük təsisata 3 il ərzində sədrlik edəcəyi qərara alındı. Bütün bunlar ölkəmizin dünya dövlətləri arasında özünü etibarlı tərəfdaş kimi sübut etməsi deməkdir, eyni zamanda, dövlətimiz dünyada sabitlik məkanı kimi tanınır. Bununla yanaşı, mövcud amil Azərbaycanın beynəlxalq müstəvidə artan rolundan və nüfuzundan xəbər verir.

Qoşulmama Hərəkatının Zirvə görüşü çərçivəsində qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub. Belə ki, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ciddi dəstəkləri ifadə etməklə yanaşı, ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı həmrəylik nümayiş etdiriblər. Bütün bu amillərin bariz nəticəsidir ki, dünyanın bir çox inkişaf etmiş ölkəsi Azərbaycanla ikitərəfli və çoxtərəfli zəmində münasibət qurmaqda maraqlıdır.

Bu günlərdə Qoşulmayan Ölkələrin Təmas qrupunun pandemiya ilə bağlı Azərbaycanın təşəbbüsü əsasında ilk videokonfransı keçirildi. Konfransda çıxış edən Prezident İlham Əliyev bir sıra məqamlara toxundu. Koronavirusla mübarizədə Azərbaycanın həyata keçirdiyi tədbirləri qeyd etdi.

Bütövlükdə, sözügedən konfransda Prezident İlham Əliyevin çıxışı və ümumən belə bir tədbir dünyada Qarabağ probleminin həlli üçün Azərbaycanın mənafelərinə uyğun atmosferin gücləndirilməsində necə rol oynayır?

*"Azərbaycan bu platformadan səmərəli istifadə edəcək və üzv ölkələrin Qarabağ münaqişəsinin həlli ilə bağlı dəstəyini alacaq"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, konfrans Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək: "Azərbaycanın sədrliyilə Qoşulmama Hərəkatının Təmas qrupunun videokonfransının keçirilməsi, həmçinin, pandemiyaya qarşı mübarizə istiqamətində səylərin birləşdirilməsi üçün Prezident İlham Əliyevin çıxışı xüsusi əhəmiyyət kəsb edir. Məhz üzv ölkələr bundan sonra Azərbaycanla sıx təmasda olacaqlar və əməkdaşlığa xüsusi önəm verəcəklər. Azərbaycan BMT-dən sonra bu böyük təşkilatda əsas söz sahibidir. Ölkəmiz artıq dünyaya açılaraq öz rəy və planlarını təqdim edir. Bu o deməkdir ki, ölkəmizin bu istiqamətdə siyasəti qənaətbəxşdir. Belə bir nüfuzlu təşkilatın üzvlərinin diqqəti Azərbaycanda oldu.

Qeyd edim ki, Azərbaycan Qarabağ münaqişəsinin nizamlanmasında bu təşkilatın dəstəyindən istifadə edə bilər. Üzv ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bundan sonrakı prosesdə ölkəmiz Ermənistanın üzv ölkələrlə əlaqələrinin zəifləməsi üçün konkret iş apara bilər. Bura xüsusilə Qarabağ məsələsində Ermənistanın təbliğatının qarşısını ala bilər. Hesab edirəm ki, Azərbaycan bu platformadan səmərəli istifadə edəcək və üzv ölkələrin Qarabağ münaqişəsinin həlli ilə bağlı dəstəyini alacaq. Hazırda bu istiqamətdə ciddi işlər gedir və bunun nəticəsi mütləq olacaq".

***Vidadi ORDAHALLI***

**Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə keçirilmiş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü barədə materiallara geniş yer ayırır.**

# Qoşulmama Hərəkatının videozirvəsi dünyanın aparıcı KİV-lərində...




AZƏRTAC xəbər verir ki, Çinin Sinxua agentliyi Prezident İlham Əliyevin nitqindən sitatlar gətirir, Azərbaycanda pandemiya ilə mübarizə istiqamətində görülən işlər, vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər barədə məlumat verir. Bu sahədə təcrübəsini bölüşməyə hazır olan Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar maliyyə yardımı ayırdığı diqqətə çatdırılır.

Zirvə görüşünü geniş işıqlandıran Malayziyanın BERNAMA agentliyi Prezident İlham Əliyevin açılış nitqində səsləndirdiyi fikir və təklifləri beynəlxalq əməkdaşlığa növbəti çağırış kimi səciyyələndirib. Prezidentin nitqinə istinadla məlumat verilib ki, pandemiya dövründə insanların sağlamlığı və əhalinin sosial müdafiəsi Azərbaycan dövləti üçün prioritet məsələlərdir.

ABŞ-da dərc olunan ispandilli "Eurasia Hoy" qəzeti Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı "Azərbaycan COVID-19-la mübarizədə qlobal miqyasda həmrəylik və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir" sərlövhəli məqalə dərc edib. Məqalədə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər nəticəsində koronavirusa kütləvi yoluxma hallarının qarşısının alındığı, son vaxtlar xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamikanın yarandığı vurğulanır. Qəzet epidemiya şəraitində iqtisadi sabitliyin təmin edilməsi, əhalinin həssas qruplarına yardımlar verilməsi, məşğulluqla bağlı problemlərin həll olunması məqsədilə böyük sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu bildirib.

BMT-nin saytında Zirvə görüşü barədə dərc olunmuş material belə adlanır: "Qoşulmama Hərəkatının üzv ölkələri pandemiya ilə mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının səylərinə tam dəstək nümayiş etdirdilər". Zirvə görüşünün əhəmiyyətinin vurğulandığı materialda BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciətində səsləndirdiyi aşağıdakı fikirlər yer alır: Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirləri tələb edir. Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir. Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdəikisini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) portalında da Zirvə görüşü haqqında ətraflı məlumat dərc olunub. Sammitdə Azərbaycan Prezidentinin qlobal həmrəyliyin nümunəsi kimi BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə bağlı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış etdiyi diqqətə çatdırılıb.

BTA (Bolqarıstan), Anadolu (Türkiyə), TASS (Rusiya), EFE (İspaniya), WAM (Birləşmiş Ərəb Əmirlikləri), İRNA (İran) agentlikləri, "Eurasiaticanews.altervista" (İtaliya), EU Politics (Avropa İttifaqı) portalları, "Nayrouz" (İordaniya), "Aldiplomacy" (Misir) qəzetləri də Qoşulmama Hərəkatının Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü barədə geniş xəbərlər yayıb.

KİV-lər qeyd edirlər ki, Azərbaycan liderinin beynəlxalq əməkdaşlığa çağırışları üzv ölkələr, həmçinin BMT, Ümumdünya Səhiyyə Təşkilatı və digər təşkilatlar tərəfindən dəstəklənib və təqdir olunub. Pandemiya ilə mübarizədə qlobal həmrəyliyin və əməkdaşlığın əhəmiyyəti vurğulanıb, səyləri bütün cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməyin vacibliyi bildirilib. Pandemiyaya qarşı mübarizədə Qoşulmama Hərəkatının oynadığı rolun danılmaz və əhəmiyyətli olduğu qeyd edilib. Vurğulanıb ki, bu virusa qarşı dünya miqyasında aparılan mübarizə siyasi sərhədlərin, hər hansı bir ideologiyanın, məfkurənin kənara qoyulmasını, birgə işləməyi tələb edir. COVID-19 dünyanın müxtəlif guşələrinin biri-birinə nə dərəcədə bağlı olduğunu göstərdi. Qoşulmama Hərəkatının Zirvə görüşü bu qlobal çağırışa zamanında verilmiş cavabdır.

Materiallarda qeyd olunub ki, Azərbaycanın bu təşəbbüsü qlobal miqyasda koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfədir.

# Operativ Qərargah Bakıda koronavirusa ən çox yoluxma zonalarını açıqladı - Yasamal və Sabunçu...

**Aprelin ortalarında koronavirusa yoluxma dalğası daha yüksəyə qalxmışdı, yoluxma sayı 27 apreldən 3 mayadək yenidən artıb. "Trend"in məlumatına görə, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, bu say artımı karantin rejiminin yumşaldılması ilə bağlıdır: "Əvvəl insanlar fərdi qoruyucu vasitələrdən istifadəyə üstünlük verirdilərsə, vətəndaşlar artıq maskalardan istifadə etmir, sosial məsafəni qorumurlar. Əvvəl küçədə 10 nəfərdən 4-5 nəfərində maska görmək olurdusa, son günlərdə 1-2 nəfərdə belə maska görmək çətin olur".

Z.Əliyev qeyd edib ki, koronavirus pandemiyası başlayandan Azərbaycan dövləti üçün əsas məsələ vətəndaşların təhlükəsizliyinin təmin edilməsi olub: "Son iki ay ərzində ölkə ərazisində karantin tədbirləri tətbiq edilib. Bu rejimin tətbiqi nəticəsində Azərbaycanda virusa yoluxma vəziyyətinə nəzarət edilir. Hazırda ölkədə koronavirusa gündəlik olaraq yoluxma qeydə alınır, aktiv xəstələr xüsusi xəstəxanalarda müalicə edilir".

Sədr əlavə edib ki, ölkə üzrə yoluxmaların müəyyənləşdirilməsi üçün nəzərdə tutulan bütün məntəqələr qısa müddətdə tam avtomatlaşdırılıb: "Bunun nəticəsində artıq bütün nümunələri elektron qaydada müəyyən edə, yoluxma təmaslarını daha tez aşkarlaya bilirik. Bununla da yoluxmanın qarşısını daha yaxşı ala bilirik".

Z.Əliyev bildirib ki, indiyədək ölkə üzrə ümumi yoluxma sayı 2127 nəfərdir, 1536 nəfər sağalıb. Hazırda aktiv xəstələrin sayı 563 nəfərə çatır.




### Bakıda koronavirusa ən çox yoluxma zonaları...

Z.Əliyev deyib ki, Bakıda koronavirusa ən çox yoluxma halları Yasamal və Sabunçu rayonlarında olub. Onun sözlərinə görə, Yasamalda bir neçə infeksiya ocağı müəyyən edilmişdi: "Bir nəfər çoxlu sayda insanı virusa yoluxdurmuşdu. Artıq həmin vətəndaşlar izolyasiya edilib və onların çoxu sağalıb".

Sədr qeyd edib ki, Gəncədə də yoluxma sayının artmasının səbəbi müəyyən edilib: "Təəssüflər ki, orada karantin rejiminə bir o qədər də əməl edilmir. Digər tərəfdən, bütün yoluxmalara baxdıqda daha çox yoluxma hallarının ailə üzvləri arasında olduğu aydın görünür. Nəticədə 1 nəfər 4-5 nəfəri yoluxdurur. Yoluxmalar həm də tibb işçiləri arasında olur ki, bu hallar da Gəncədə müşahidə edilib. Hazırda orada bütün tədbirlər görülür ki, neqativ hallar aradan qalxsın. Şimal bölgəsində Rusiyadan keçən bir neçə nəfərdə testlərin nəticəsi pozitiv çıxıb. Eyni zamanda, cənub bölgəsində də İranla gediş-gəliş olduğu üçün orada yoluxma halları çox olub".

Z.Əliyev əlavə edib ki, virusa yoluxanların çoxu 50-59 yaşlı insanlardır: "Yoluxanların 54 faizi isə qadınlardır. Vəfat edənlər əsasən 60-69 yaşlı insanlardır. Ölənlərin 43 faizini məhz bu yaşda olanlar təşkil edir".

### Dünyada koronavirusla müalicədə tətbiq edilən dərman və tibbi vasitələr Azərbaycanda da istifadə edilir

Hazırda dünyada koronavirusla müalicədə tətbiq edilən bütün dərman və tibbi vasitələrin Azərbaycanda da istifadə edildiyini deyən Z.Əliyevin sözlərinə görə, müalicə işinin təşkili üçün bütün yeniliklərdən istifadə edilir.

Mayın 31-dək karantin rejiminin davam edəcəyini xatırladan Z.Əliyev hazırda yumşaldılma tədbirlərinin tətbiq edildiyini söyləyib: "Dövlət rəhbərliyi də istəməz ki, ölkə davamlı olaraq, karantin rejimində qalsın. Bu, iqtisadi baxımından da müəyyən çətinliklərin yaranmasına səbəb olur. Bu rejimin aradan qaldırılması bizdən asılıdır. Bizim hər birimiz öz məsuliyyətimizi dərk etməliyik. Biz ictimai nəqliyyatda qoruyucu vasitələrdən istifadə edirikmi, evə gəldikdə əllərimizi yuyuruqmu, sosial məsafəni qoruyuruqmu? İlk növbədə bu suallara cavab verməli və onlara əməl etməliyik. Yaşı 65-dən çox olan insanların evdə qalması da məhz onların sağlamlığı üçün atılan tədbirdir".

Z.Əliyev bildirib ki, koronavirus testinin cavablarının SMS-lə açıqlanması üçün sınaqlar keçirilib. Onun sözlərinə görə, texniki problemləri aradan qaldırmaq üçün sistem yenidən təkmilləşdirilib.

Z.Əliyev SMS sisteminin yaxın zamanda tam tətbiq ediləcəyinə əmin olduğunu deyib.

### Koronavirus xəstəsinin müalicəsi üçün bir gündə nə qədər vəsait xərclənir…

Onun sözlərinə görə, Azərbaycanda ən yüngül vəziyyətdə olan xəstələrin müalicəsi üçün bir gündə təqribən 80, ağır vəziyyətdə olan xəstələrin müalicəsi üçün 150 manat xərclənir: "Amma bu rəqəm xəstənin ağırlıq vəziyyətindən asılı olaraq dəyişir. Bu məbləğə həmin xəstənin yemək, tibbi ləvazimat xərcləri, xəstəni müalicə edən həkimlərin məvacibləri və digər məsələlər daxildir".

### Pandemiya Azərbaycanda icbari tibbi sığortanın tətbiqinə təsir etdi

"Təəssüflər olsun ki, koronavirus pandemiyası Azərbaycanda icbari tibbi sığortanın tətbiqinə təsir etdi" - deyən Z.Əliyevin sözlərinə görə, layihə kifayət qədər uğurla başlamışdı: "Xəstəxanalarda gündəlik müraciətlərin sayı 1000-i keçmişdi. Təəssüflər olsun ki, koronavirus məsələsi ortaya çıxanda bütün gücləri onunla mübarizəyə sərf etdik. Həm koronavirusla mübarizəni, həm də icbari tibbi sığortanın tətbiqinin eyni vaxtda davam etməsi mümkün deyildi. Digər mərhələli rayonlar üzrə layihənin tətbiqi 2021-ci ilin yanvarına qədər ertələndi".

### Koronavirus xəstələrinin sayı çoxalarsa, karantin qaydalarının sərtləşdirilməsi təklif ediləcək

Z.Əliyev bildirib ki, Azərbaycanda koronavirus xəstələrinin sayı kifayət qədər çoxalarsa, xəstəxanalarda xəstə yeri olmasa, karantin qaydalarının sərtləşdirilməsi təklifini verəcəyik. Amma bu qərarları Nazirlər Kabineti yanında Operativ Qərargah verir.

Onun sözlərinə görə, indiyədək koronavirusa yoluxan uşaqlarda hər hansı ağırlaşma halı olmayıb: "Astara, Lənkəran, Cəlilabadda zaman-zaman müəyyən infeksiya ocaqları əmələ gəlib. Onlar aşkarlanaraq izolyasiya edilib. Gəncə Azərbaycanın ikinci böyük şəhəridir, oraya giriş-çıxış kifayət qədər çoxdur. İlk yoluxma halları oraya xaricdən gəlib, daha sonra yoluxma davam edib".

### Azərbaycanda koronavirusa 67 yeni yoluxma, 28 nəfər sağaldı, 2 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında 67 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1958 və 1969-cu il təvəllüdlü iki nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 2127 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1536 nəfər müalicə olunaraq sağalıb, 28 nəfər vəfat edib, 563 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 33 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 169.790 test aparılıb.

# İcra başçıları arasında rüşvət, korrupsiyaya meylin illər sonra özünü göstərməsi...

**Bir neçə gündür ki, ölkə gündəmini DTX-nın yerlərdəki məmur korpusunda keçirdiyi əməliyyatlar məşğul edib. Artıq son 5 ay ərzində 5 rayonun icra başçısı həbs olunub. Onlardan 4-ü vəzifə başında olub, biri isə sabiq icra başçısıdır. Həbs edilən icra başçıları ilə bağlı nümayiş olunan əməliyyat çəkilişlərindən görünür ki, həmin şəxslər öz kabinetlərində oturub, mütəmadi rüşvət yığımı ilə məşğul olublar.**




***İlqar Hüseynli:** "Bütün bunlar sübut edir ki, icra başçılarının uzun sürən neqativ fəaliyyətini kimlərsə məqsədli şəkildə ört-basdır edib"*

Həmin şəxslərin tərcümeyi-halında diqqətçəkən vacib bir detal da üzə çıxır. Bəlli olur ki, həbs edilən icra baçılarının böyük əksəriyyəti uzun müddət həmin postu tutanlardı, hətta aralarında elələri var ki, bir neçə rayona rəhbərlik edib. Belə olan təqdirdə maraqlı sual yaranır: onlar fəaliyyətlərinin son dönəmində korrupsionerə çevriliblər, yoxsa etdikləri neqativ əməlləri bu müddət ərzində pərdələməyi bacarıblar?

Əslən icra başçısı son həbs edilən rayondan olan sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, icra başçısı sistemi avtonom deyil:"Bilirsiniz ki, onlara nəzarət edən ali qurumlar var. Hətta Prezident Administrasiyasında onlara nəzarət edən şöbələr, xüsusi kuratorlar da olur. Mən inanmıram ki, həbs edilən icra başçıları yalnız son dönəmlər rüşvət və korrupsiya ilə məşğul olublar. Media üzərindən axtarış etsəniz üzə çıxacaq ki, həmin icra başıları ilə bağlı jurnalist araşdırmaları ortaya qoyulub. Eyni zamanda rayonla əlaqəsi olan bir adam kimi deyə bilərəm ki, icra başçıları yerlərdəki əhaliyə necə əziyyət verirdi. Onlara nəzarət edən qurumların belə halları indiyə qədər görməməsi mümkünsüzdür. Məntiqlə götürsək, onlar elə vəzifədə işlədikləri dönəmdə belə "qara" işlərlə məşğul olublar. Belə olmasaydı, dəyəri bir neçə milyonlarla ölçülən mülklərə sahib ola bilməzdilər. Qısa müddətdə belə "nailiyyətlərə" imza atmaq mümkün deyil. Həbs edilən və fəaliyyətdə olan bir çox icra başçıları ilə bağlı araşdırma aparanda onların tərcümeyi-halı ilə də bağlı maraqlı detallar üzə çıxır. Xüsusilə də onların ali təhsilləri ilə bağlı. Bəlli olur ki, onlar ciddi universitetlərdə təhsil almayıblar, ya da yaşlarının kifayət qədər ahıl çağında hardansa ilk ali təhsil diplomunu əldə ediblər. Hiss olunur ki, icra başçısı olmaq üçün çatışmayan detal diplom olduğuna görə təcili həmin məsələni həll ediblər. Onların övladları da dövlət qurumlarında yaxşı vəzifələrdə çalışırlar. Müəyyən istisnalar olmaqla deyə bilərəm ki, onlar test edilsə, normal savadlarının olmadığı üzə çıxacaq. Çünki həmin icra başçılarının övladlarının harın həyatı ilə bağlı mediada çoxlu sayda materiallar yerləşdirilib. Hətta elə olurdu ki, onların səsi ölkə kənarlarından belə bizə pis mənada gəlib çatırdı. Həbs edilən Vilyam Hacıyevin fəaliyyəti ilə yaxından tanışam. Əslən o rayondanam, həmin rayondan deputatlığa namizəd olmuşam. Onun müəyyən qanunsuz əməlləri ilə bağlı mən özüm də dəfələrlə çıxışlar etmişəm. Ölkə başçısı dəfələrlə deyib ki, ona yerlərdəki vəziyyətlə bağlı düzgün məlumatlar verməyiblər. Bütün bunlar sübut edir ki, icra başçılarının uzun sürən neqativ fəaliyyətini kimlərsə məqsədli şəkildə ört-basdır edib. Şübhəsiz ki, belə hallara yol verənlər də həmin icra başçıları ilə şərikdirlər.

Yəqin ki, istintaq belə adamların da məsuliyyət dairəsini müəyyən edəcək. Bəlli olur ki, bu müddət ərzində onlar külli miqdarda dövlət vəsaitini talan ediblər. 5 rayonla bağlı aparılan tədbirlərlə kifayətlənmək olmaz. Yaxşı olardı ki, hazırda vəzifədə olan bəzi icra başçıları özlərində güc tapıb əməllərini etiraf etdikdən sona istefa ərizəsi yazsınlar. Dövlətdən oğurladıqlarını könüllü geri qaytarsınlar. Həbsxanaya gedənə qədər vəzifədə qalmağı özləri üçün qənimət sayırlar. Hesab edirəm ki, onları bu müddət ərzində himayə edən zənciri də aşkarlamağın vaxtı çatıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Həbs edilmiş icra başçılarının qanunsuz topladıqları əmlakların taleyi...

**Ölkədə icra başçılarının həbsi prosesi davam edir. Son yayılan məlumata görə, DTX bənzər əməliyyatı İmişli rayonunda həyata keçirib. Nəticədə icra başçısı Vilyam Hacıyev və onun tabeliyində olan bir neçə şəxsin DTX tərəfindən həbs edilərək Bakıya gətirildiyi bildirilir.**




***Elşad Musayev:** "Həm həbslər davam etdirilməli, həm də millətdən, dövlətdən oğurlanan milyonlar, milyardlar dövlətə qaytarılmalıdır"*

***Mehman Muradlı:** "Etdiyi əməldən asılı olmayaraq, təqsirləndirilənlərə qarşı bütün addımlar hüquq çərçivəsində atılmalıdır"*

İcra başçıları həbs ediləndən sonra mediada onların külli miqdarda sərvətlərinin, mülklərinin olduğu üzə çıxır. Məlum olur ki, bunlar üçün daha prioritet istiqamət məhz rüşvət toplamaq olub. Qeyd edək ki, belə həbslərin həyata keçirilməsini sadə vətəndaşlar alqışlayır və dövlətə dəstəklərini ifadə edirlər. Vətəndaşların irəli sürdüyü tələblər isə onların ağır cəzaya məhkum edilərək, topladıqları sərvətlərin əllərindən alınması ilə bağlıdır. Həbs edilən icra başçılarının korrupsiya yolu ilə əldə etdikləri sərvətin əllərindən alınaraq hara köçürülməsi korrupsioner məmurlar üçün ibrət ola bilər? Müxalifyönümlü Böyük Azərpaycan Partiyasının sədri Elşad Musayevin sözlərinə görə, icra hakimiyyəti başçılarının həbsi sadə insanlarımız tərəfindən müsbət qarşılanır:"Bu rüşvətxor, işbilməz məmurların əməllərindən xalq bezib. Amma məsələ bununla bitməməlidir. Həm həbslər davam etdirilməli, həm də millətdən, dövlətdən oğurlanan milyonlar, milyardlar dövlətə qaytarılmalıdır. Bir qisim yüksək rütbəli məmur həbs olunmasa da işdən kənarlaşdırılıb, amma haram yolla yığdıqları külli miqdarda vəsait əllərindədir. Xortumlar sıxılmalı və həmin pullar əllərindən alınmalıdır". Azərbaycan Vəkillər Kollegiyasının üzvü Mehman Muradlı isə qəzetimizə bildirdi ki, bütün addımlar hüquqi yolla tənzimlənməlidir:"Biz görürük ki, həmin icra başçılarının ətrafında əməliyyat aparılıb. Ortaya ciddi sübutlar qoyulub və onların barəsində həbs qətiimkan tədbiri seçilib. Hazırda həmin işlərin istintaqı aparılır. Bu o demək deyil ki, hansısa qurum korrupsiya yolu ilə alındığı iddia olunan vəsaiti və ya mülkü götürüb dərhal kiməsə verə bilər. İstintaq bu halları araşdıracaq. Çünki onların təqsirləndirilərək barələrində həbs qərarının verildiyi maddələr bunu tələb edir. Bu istiqamətdə istintaqın əldə etdiyi sübutlara məhkəmə istintaqı zamanı qiymət veriləcək. Çoxpilləli məhkəmə instansiyaları bitəndən sonra isə onlar barəsində çıxarılan hökm qanuni qüvvəyə minəcək.

Orda cinayət yolu ilə əldə edilən əmlakın müsadirəsi ilə bağlı müddəa və tələb öz əksini taparsa, icraya yönəldiləcək. Təbiidir ki, o pullar dövlətin büdcəsinə gedir. Dövlət də lazımi istiqamətdə onun xərclənməsi ilə bağlı qərar verir. Biz hüquqi dövlətdə yaşayırıq. Etdiyi əməldən asılı olmayaraq, təqsirləndirilənlərə qarşı bütün addımlar hüquq çərçivəsində atılmalıdır. Düşünürəm ki, həbs, əmlaka qoyulan müsadirə və cəzaya məhkum olunmanın özü elə korrupsionerlər üçün dərs və ibrət olmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Bəzi rayonların icra başçıları ətrafında cərəyan edən neqativliklər, onların və ətraflarının həbsi icra başçısı institutu ilə bağlı xeyli suallar ortaya çıxarır. Bəziləri hesab edir ki, belə qurumların səlahiyyəti azaldılmalı və seçki əsasında formalaşan bələdiyyələrə verilməlidir. Başqa mövqedə olanlar isə hesab edir ki, həmin vəzifələrə uyğun namizədlər təyinat alsa vəziyyət düzələ bilər.**

# Konstruktiv azlıq partiyalarının icra başçısı təyinatı üçün kadrlar korpusu varmı...



***Bünyamin Qənbərli:** "Belə adamlara etimadın göstərilməsi uğurlu nəticə verə bilər"*

Hətta belə təkliflər var ki, ölkədə gedən siyasi dialoqun davamı kimi, bir neçə rayona konstruktiv müxalifətin nümayəndələri icra başçısı təyin edilsinlər. Bəllidir ki, Prezident bir neçə dəfə çıxışlarında siyasi sistemdə islahatın zəruriliyini bildirib. Yeni siyasi konfiqurasiyanın formalaşması istiqamətində atılan bəzi addımları gördük. Parlamentin idarəçiliyinə konstruktiv müxalifətin üzvü olan deputatlar gətirildi. Tanınmış müxalifətçilərin cinayət işlərinə Ali Məhkəmə tərəfindən bəraət verildi, onlara yüksək məbləğdə kompensasiyanın ödənilməsinə dair qərar qəbul olundu. Uzun fasilədən sonra bir neçə siyasi partiya qeydiyyata alındı. Bütün bunların davamı olaraq həbs edilən icra başçılarının yerinə konstruktiv müxalifəti təmsil edən kadrların təyin olunması hansı effekti verə bilər? Maraqlıdır, bu qəbildən olan partiyaların bunun üçün kadr ehtiyatları varmı və həmin siyasi təsisatlar indiyə qədər hakimiyyətə bu yöndə müraciət ediblərmi?

Parlamentdə təmsil olunan konstruktiv müxalifət partiyası olan BAXCP sədrinin müavini Bünyamin Qənbərli qəzetimizə bildirdi ki, hakimiyyətin siyasi əməkdaşlıqla bağlı konkret addımlar atdığını müşahidə edirik:"Bütün siyasi qütblərlə əlaqənin genişlənməsi, xüsusilə də bunun idarəçilikdə sınanması olduqca doğru yoldur. Belə addımlar göstərir ki, ölkə rəhbərliyi özünə və xalqın dəstəyinə güvənir. Hakimiyyətin müəyyən mənada bölüşülməsi dövlətçilik ənənələrini də möhkəmləndirmiş olur. Hakimiyyətin müxalifət fəalları ilə bağlı atdığı bəzi addımlar hüququn ölkədə oturuşduğunu göstərir. Görünən budur ki. hakimiyyət dövlət idarəçiliyinin daha da təkmilləşməsində maraqlıdır. Müxalifətin icra qurumlarında geniş təmsilçiliyində hakimiyyətin özü də maraqlı olmalıdır. Həm məsuliyyəti bölüşür, həm də daim tənqidçi olan müxalifətə bacarığını göztərməyə şərait yaradılır. Bunun adına milli etimad da demək olar. Hakimiyyət bunu mərhələli şəkildə etsə, faydasını görər. Konstruktiv müxalifət partiyası kimi bizim kifayət qədər kadr potensialımız var. Hesab edirəm ki, belə imkanlar digər partiyalarda da mövcuddur. Onlardan bəziləri Elçibəy hakimiyyəti dönəmində vəzifələrdə işləyib, özlərini təsdiqləyiblər. Həmin adamlar ölkənin ictimai-siyasi həyatında bu gün də fəaldırlar. Bizim partiyanın üzvləri bir çox bələdiyyələrdə təmsil olunub və uğurla fəaliyyət göstərib. Yəni bir neçə rayona icra başçısı namizədi irəli sürməyə potensialımız var. Biz konkret olaraq şəxslərin icra başçılığına iddiası ilə bağlı siyahını təqdim etməmişik. Ancaq partiyamız tərəfindən müəyyən sahələrlə bağlı hazırlanan qanun layihələrini təqdim etmişik. Bizm fərqimiz yalnız yerdəyişmə ilə bağlı olmaz. Müxalifət nümayəndəsi həm dövlət məsuliyyətini, həm də cəmiyyətin üzərində olacaq ictimai məsuliyyətini dərk edəcək. Belə adamlara etimadın göstərilməsi uğurlu nəticə verə bilər. Onlar dərk edəcəklər ki, etdikləri neqativliklər yalnız şəxsi adlarına deyil, təmsil etdikləri partiyaların adına yazılacaq".

***Məhəmmədli QƏRİBLİ***

**Uzun müddətdən bəri başlayan və açıq formatda keçirilən görüşlər ölkədəki siyasi durğunluğun aradan qaldırılmasına zəmin yaradır. Hakimiyyətin təşəbbüsü ilə başlayan iqtidar-müxalifət dialoqunda müəyyən müsbət nəticələr var.**

# Azərbaycanda iqtidar-müxalifət siyasi dialoqunun ilk müsbət nəticələri - hakim və müxalif partiyaların fikirləri üst-üstə düşdü...



***Aydın Hüseynov:** "Parlamentdəki bütün komitələrdə müxalifət nümayəndəsi təmsil olunur"*

***Arzuxan Əlizadə:** "Bu dialoq müxalifət və iqtidar arasında qarşılıqlı etimad mühiti yaradır"*

İqtidar-müxalifət dialoqu, Milli Məclisin komitələrində müxalif nümayəndələrin rəhbərlikdə təmsil olunması, partiyaların dövlət qeydiyyatına alınması dialoqun müsbət nəticələrini özündə göstərir.

İqtidar-müxalifət dialoqu siyasi səhnədə uzun müddətdən sonra bir canlanma yaratdı. Ötən ilin noyabr ayında Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı. Sözügedən şöbənin müdiri Ədalət Vəliyevin müxalifət partiyaları ilə əlaqə saxlaması iqtidarın bu məsələyə müsbət münasibətinin göstəricisidir. Parlament seçkilərindən sonra Milli Məclisin rəhbər heyətinə müxalifət nümayəndələrinin seçilməsi iqtidarın bu məsələyə xüsusi önəm verməsini bir daha təsdiqlədi. İki müxalif mövqedən çıxış edən partiya qeydiyyata alındı. Bütün bunlar həm də iqtidar-müxalifət dialoqunun bütün dövrlər üçün öz aktuallığını qoruduğunu göstərir. Hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi prosesin uğurlu gedişindən xəbər verir. Görünən odur ki, hakimiyyətin təklif etdiyi siyasi dialoq artıq ilk müsbət nəticəsini verir.

Maraqlıdır, bəs dialoq aparan tərəflər bunu necə dəyərləndirirlər? İqtidar-müxalifət dialoqunda hansı nəticələr var?

Sözügedən məsələni dəyərləndirən YAP Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynovun sözlərinə görə, iqtidar-müxalifət dialoqunun nəticələri var: "Əvvəla Azərbaycan hakimiyyəti hər zaman siyasi dialoqun tərəfdarı olub. Ölkənin milli maraqlarından çıxış edən müxalifətə əl uzadıb. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra ölkədə demokratik prinsiplərə söykənən idarəçilik sistemi formalaşdı. 1995-ci ildə bir sıra partiyaların iştirakı ilə parlament formalaşdı. Bu siyasət sonra da davam etdirildi. Bu gün iqtidar və müxalifət partiyalarının nümayəndələri parlamentdə, oradakı komitələrdə təmsil olunurlar. Vitse-spiker səviyyəsində müxalifət partiyası təmsil olunur. Belə ki, parlamentdəki bütün komitələrdə müxalifət nümayəndəsi təmsil olunur. Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev partiya rəhbərlərilə görüşlər keçirdi. Bununla belə, 2 müxalifət partiyası qeydiyyata alındı. Bütün bunlar siyasi dialoqun nəticəsidir. Dialoq sayəsində biz qarşıda duran məsələləri həll edəcəyik. Dövlətimizi daha da qüdrətləndirəcəyik. Konstruktiv müxalifətlə sağlam əməkdalıq davam etdiriləcək".

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin fikrincə, aparılan iqtidar-müxalifət dialoqunda müəyyən müsbət nəticələr var: "Ümumilikdə, uzun fasilədən sonra iqtidar və müxalifət nümayəndələrinin görüşləri müsbət tendensiyadır. Bu dialoq müxalifət və iqtidar arasında qarşılıqlı etimad mühiti yaradır. Müəyyən məsələlərdə müxalifət partiyalarının da rəyi nəzərə alınır. Biz partiya olaraq bunun tərəfdarıyıq. Müxtəlif məsələləri birgə müzakirə etmək, ortaq mövqedən çıxış etmək dövlətin, millətin xeyrinədir. AMİP hər zaman dialoqun tərəfdarı olub.Təəssüflər olsun ki, bundan əvvəlki dövrlərdə iqtidar-müxalifət dialoqu reallaşmayıb.

Ötən ilin sonlarında Prezident Administrasiyasında yeni bir şöbə yaradıldı. Bundan sonra iqtidar-müxalifət dialoqu ilə bağlı proseslərə start verildi. Karantindən əvvəl Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə partiya rəhbərləri arasında tanışlıq görüşləri keçirildi. Mən də həmin görüşlərdə iştirak etmişəm. Ədalət bəy bildirdi ki, tanışlıq görüşündən sonra belə təmaslar davam edəcək. Bir sıra məsələlər birgə müzakirə olunacaq. Ümid edirik ki, karantindən sonra sözügedən görüşlər olacaq və ölkənin taleyüklü məsələlərinin müzakirəsində müxalifət-iqtidar təmasları təmin olunacaq. Görüşlərdə müxalifət partiyalarının qərargah məsələsi qaldırılıb və ümid edirəm ki, bunlar öz həllini tapacaq".

***Vidadi ORDAHALLI***

# Lukaşenko MDB dövlət rəhbərlərini Minskdə 9 May Qələbə paradına çağırdı - Azərbaycanın iştirak məsələsi...

**2020-ci ilin 9 May tarixində faşizm üzərində Qələbənin 75 illiyi tamam olur. Pandemiyaya qədərki dövrdə yubiley münasibətilə Rusiyanın paytaxtı Moskvada ənənəvi qələbə paradının keçiriləcəyi bildirilirdi. Lakin, bildiyimiz kimi, Rusiya Prezidenti Vladimir Putinin qərarı ilə Rusiyada İkinci Dünya Müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunan Qələbə paradı təxirə salınıb.**

Qərara səbəb isə koronavirus infeksiyasının yayılması təhlükəsidir. Rusiya Prezidenti bununla əlaqədar Qələbə paradının qeyri-müəyyən vaxtadək təxirə salındığını, lakin 2020-ci il ərzində keçiriləcəyini bəyan edib.

Rusiyadan fərqli olaraq bir müddət əvvəl Belarus Prezidenti Aleksandr Lukaşenko bu ölkədə Qələbənin 75 illiyi ilə əlaqədar olaraq təntənəli parad keçiriləcəyini bəyan etmişdi. Hətta Belarus Prezidenti Aleksandr Lukaşenko koronavirus pandemiyası ilə əlaqədar olaraq Minskdə müharibənin bitməsinin 75 illiyi münasibətilə hərbi paradı ləğv edə bilməyəcəyini dəfələrlə deyib. O, minlərlə insanın təntənələrin baş tutmasını istədiyini bildirib.

Lukaşenkonun sözlərinə görə, o, bu məsələ üzərində çox fikirləşib, lakin müharibə veteranları "ilk olaraq özləri bu tədbirə gətirilmələrini tələb ediblər". Belarus lideri qeyd edib ki, o, müharibə veteranlarının hökumətin pandemiyadan qorxduğunu fikirləşmələrini istəmir.

Qələbə paradı keçirməkdə israrlı olan Belarus Prezidenti Aleksandr Lukaşenko keçmiş Sovet İttifaqı respublikalarının hazırkı dövlət başçılarını Minskdəki Qələbə paradına dəvət edib. Lukaşenko 9 Mayda digər ölkələrin prezidentlərini gözlədiyini açıq şəkildə bildirib. "Mən dövlət başçılarını, ən azı keçmiş İttifaqı açıq şəkildə dəvət edirəm" - deyə o qeyd edib.

Onun fikrincə, prezidentlər Belarusa toplaşmalıdırlar, çünki respublika ilk zərbəni alıb və yer üzündən silinib. "Belarus ən çox zərər görən respublikadır - müharibənin canlı abidəsidir", - Lukaşenko qeyd edib.

Lukaşenkonun bu dəvətinə necə münasibət bəslənilməlidir? Azərbaycanın bu paradda rəsmi iştirakına ehtiyac varmı?

Azərbaycanın Əməkdar müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent, DİA-nın Tarix kafedrasının müdiri Firdovsiyə Əhmədova "Bakı-Xəbər"ə bildirdi ki, faşizm üzərində Qələbənin qazanılmasında önəmli rol oynayan ölkələrdən biri məhz Azərbaycandır. "İndi karantin rejimi ilə əlaqədar olaraq bir sıra ölkələr ümumi beynəlxalq qaydalara uyğun olaraq, bəziləri isə müstəqil qaydada virusdan qorunmaqla bağlı mövcud vəziyyəti qiymətləndirirlər. Ancaq Belarusda pandemiyaya bir az fərqli yanaşma sərgiləndi. Bu səbəbdən də bütün karantin rejimi qaydalarına rəğmən, Qələbənin 75 illiyinin rəsmi şəkildə qeyd edilməsi ilə bağlı qərar qəbul edildi. Ona görə də Lukaşenkonun faşizm üzərində Qələbənin qazanılmasında payı olan dövlətlərə, həmin dövlətlərin başçılarına müraciət etməsi və onları Qələbə paradına dəvət etməsi təqdirəlayiq ola bilər. Yəni, bütün hallarda, dəvət saygı, diqqət və eyni zamanda, bu, dəvət olunan dövlətlərin Qələbədə payının qiymətləndirilməsi deməkdir. 9 Maya az saylı günlər qalıb. Ona görə də insan sağlamlığı, təhlükəsizliyi baxımından belə kütləvi tədbirlərin keçirilməsi, təbii ki, birmənalı qarşılana bilməz. Azərbaycandan həmin tədbirdə nümayəndə heyətinin, yaxud fərdi şəkildə hansısa rəsmi şəxsin iştirak etməsi yenə də müstəqil qərara bağlı bir məsələdir. Təbii ki, Azərbaycanın da faşizm üzərində Qələbənin 75 illiyi ilə bağlı keçiriləcək tədbirlərdə iştirak etməsi arzuolunandır. Çünki bu, Qələbəyə çox böyük haqqı olan ölkələrdən biri Azərbaycandır. Bizim respublikanın ərazisində birbaşa döyüş əməliyyatı getməsə də, Azərbaycan özünün təbii sərvəti, canlı qüvvəsi ilə bu cəbhədə həm itki verib, həm də Azərbaycan alimlərinin, xüsusən də Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun tibb və kimya sahəsində, sənayedə ixtiraları bu Qələbənin qazanılmasına böyük töhfələr verib. Ona görə də Belarusda keçiriləcək Qələbə tədbirində dövlətlər iştirak edəcəklərsə, həmin dövlətlərin ön sırasında Azərbaycanın olması tam qanunauyğundur. Bu, Azərbaycanın haqqıdır. Amma təhlükəsizlik baxımından Azərbaycan nümayəndəsinin həmin tədbirdə iştirak etməsi məsələsi ilə bağlı seçim mövcud vəziyyətdən irəli gələn qaydalara bağlıdır. Hər halda, Azərbaycan rəsmi şəxs, yaxud heyət halında Belarusda keçiriləcək Qələbə paradında təmsil olunmasa belə, heç kim ölkəmizin faşizm üzərində Qələbənin qazanılmasındakı payını, haqqını inkar edə bilməz. Amma hesab edirəm ki, hətta rəsmi tədbirlərin keçirilməsi zamanı Qələbənin qazanılmasında önəmli payı olan ölkələrin nümayəndələri iştirak etməsələr belə, rəsmi keçiddə o dövlətlərin atributları nümayiş etdirilməklə simvolik olaraq o dövlətlərin rolu, varlığı qeyd olunmalıdır".




***Firdovsiyə Əhmədova:** "...Qələbənin 75 illiyi ilə bağlı keçiriləcək tədbirlərdə iştirak etməsi arzuolunandır"*

***Şakir Ağayev:** "...müstəsna hal olaraq qərar vermək Azərbaycan Prezidentinin səlahiyyətlərinə aiddir"*

F.Əhmədova hesab edir ki, bu, Belarus dövlətinə həm sivil qaydalar, həm də nüfuz baxımından yalnız müsbət dividendlər gətirən bir jest, məqam ola bilər. Müsahibimizin sözlərinə görə, dəvət üçün yenə də Belarus dövlətinə Azərbaycan tərəfindən bir təşəkkür mövcuddur.

"Novoe vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Ağayevin sözlərinə görə, alman faşizmi üzərində Qələbənin qazanılması çox önəmli faktordur. "Bu məsələyə Avropa ölkələrində münasibət birmənalı deyil. Hesab edirəm ki, onların yanaşması, tarixin saxtalaşdırılması səhvdir. Faşizm üzərində Qələbədə Sovet İttifaqının rolunun danılması çox qeyri-obyektiv və qərəzli yanaşmadır. Heç kəsə gizlin deyil ki, dünyanı faşizm bəlasından məhz Sovet İttifaqı xilas edib. Yəni ona görə Sovet İttifaqı deyirəm ki, həmin dövrdə Sovet İttifaqında 15 respublika var idi. Təbii ki, Azərbaycanın da fazşizm üzərində Qələbənin qazanılmasında çox böyük rolu var. 600 mindən çox Azərbaycan vətəndaşı İkinci Dünya Müharibəsində iştirak edib. Biz yalnız ön cəbhədə deyil, arxa cəbhədə də Qələbənin qazanılmasına böyük töhfələr vermişik. Burada Bakı neftinin rolu da danılmazdır. Müharibə zamanı istifadə edilən neftin 70, bəlkə də daha artıq fazi Bakı neftinin üzərinə düşüb. Biz bu müharibədə Sovet İttifaqının tərkibində iştirak etdiyimizə görə, təbii ki, Azərbaycan da faşizm üzərində Qələbəyə xüsusi önəm verir. Bunun ən bariz nümunəsi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə faşizm üzərində Qələbənin 75 illiyi ilə bağlı medalın təsis edilməsi, eləcə də Böyük Vətən Müharibəsi iştirakçılarına və onların ailələrinə maddi yardımlar edilməsidir. Azərbaycan Prezidenti həmişə bu Qələbəyə böyük önəm verib.

Bildiyiniz kimi, Rusiyada faşizm üzərində Qələbinin 75 illiyinə böyük hazırlıqlar gedirdi. Hətta Qırmızı meydanda keçiriləcək Qələbə paradına ABŞ Prezidenti Tramp, Almaniya kansleri, Azərbaycan Prezidenti, bir sözlə, dünya ölkələrinin liderləri dəvət edilmişdilər. Çox təəssüf ki, dünyanı bürüyən koronavirus bəlası Qələbənin 75 illiyinin 9 May tarixində Moskvada keçirilməsinə maneələr törətdi və Rusiya Prezidenti qərar qəbul etdi ki, Qələbə paradı sentyabrda İkinci Dünya Müharibəsinin başa çatdığı tarixdə keçirilsin. Səhv etmirəmsə, tədbirin keçirilməsi 3 sentyabr tarixinə planlaşdırılır".

Belarus Prezidentinin dəvətinə gəlincə, Ş.Ağayev qeyd etdi ki, Rusiya Prezidentindən fərqli olaraq, Belarus Prezidenti başdan bu paradı keçirməkdə israrlı olduğunu qeyd etdi. Ş.Ağayev vurğuladı ki, Belarusda pandemiya ilə bağlı heç bir karantin tədbirləri görülmür. "Belarus yeganə ölkədir ki, orada həyat tam əvvəlki qaydası ilə davam edir. Belarus Prezidenti koronavirusla bağlı heç bir qadağanedici qərar qəbul etməyib. Heç kimə gizlin deyil ki, İkinci Dünya Müharibəsində ilk zərbə Belarusa dəyib. 1941-ci ilin 22 iyun gecəsi məhz Brest qalasına faşistlər tərəfindən hücum olunub. Siz tarixdən bilirsiniz ki, insanlar Brest qalasını müdafiə etmək üçün faşistlərlə qeyri-bərabər döyüş apardılar, lakin Brest qalası süqut edib. Brest qalası Belarusun giriş qapısıdır. Şübhəsiz ki, Belarusda Xatın kəndi faşistlər tərəfindən tamamilə yandırılıb. Bu gün də ora tarix muzeyi kimi qalır. Bu Qələbə paradını keçirməyə şübhəsiz ki, Belarusun da haqqı var. Təkcə Belarusun deyil, keçmiş Sovet İttifaqına daxil olan ölkələrin hamısının bu Qələbənin qazanılmasında payı, haqqı var. Ona görə də Belarus Prezidenti Qələbəyə belə önəm verir və bu paradı keçirməyi qərara alıb. Qaldı ki, Azərbaycanın Belarusun faşizm üzərində Qələbənin 75 illiyi ilə bağlı keçirəcəyi Qələbə paradında iştirak etməsi məsələsinə, bununla bağlı müstəsna hal olaraq qərar verilməsi Azərbaycan Prezidentinin səlahiyyətlərinə aiddir. Hesab edirəm ki, vəziyyət imkan verərsə, Azərbaycanın o paradda iştirakı düzgün olardı. Fikrimcə, bu tədbirdə kiminsə iştirakı müəyyənləşər. Çünki Azərbaycanın faşizm üzərində Qələbənin qazanılmasına verdiyi töhfələr heç bir dövlətdən az deyil, əksinə, deyərdim ki, daha çoxdur. Yenə də deyirəm, bu bizim səlahiyyətimizdə olan məsələ deyil, bununla bağlı ölkə başçısı qərar qəbul edə bilər. Düşünürəm ki, ölkə başçısı özü olmasa da, Azərbaycan bu paradda hansısa rəsmi şəxs tərəfindən təmsil olunar. Bu Qələbə paradının keçirilməsinə Lukaşenko qərar verib. Kaş həmin tarixə qədər koronavirus bəlası bir qədər səngisin".

Ş.Ağayevin sözlərinə görə, indi əsas məsələ pandemiyadan insanların sağlamlığının, təhlükəsizliyinin qorunmasıdır. O qeyd etdi ki, heç kəs Qələbəni unutmur və unutmayacaq da. "Bu Qələbə dünyanın faşizmdən xilas edilməsidir. Təəssüflər ki, Avropa dövlətləri bunu unudurlar. Onlar Rusiyaya qarşı olan qərəzlərini, qıcıqlarını sovet əsgərlərinin heykəllərindən heyf almaqla çıxırlar, onların verdiyi töhfələri saxtalaşdırırlar. Bu müharibədə Sovet ittifaqı vuruşub, yəni Rusiya burada tək dövlət kimi iştirak etməyib. Halbuki, bu Qələbəni inkar etmək, saxtalaşdırmaq olmaz. Çünki bu, yeni faşizm dalğasının meydana gəlməsinə təkan verər ki, bu da dünya üçün çox böyük fəlakətlərə gətirib çıxara bilər. Faşizm üzərində Qələbəni qeyd etməklə dünyaya mesajlar vermək lazımdır ki, faşizmə, şovinizmə, milli ayrıseçkiliyə qətiyyən yol vermək olmaz".

***İradə SARIYEVA***

# ABŞ-ın Minnesota ştatı ermənipərəst mövqeyə keçdi - ədalət və hüquqa zidd olan Azərbaycan düşmənçiliyi...

**ABŞ-ın Minnesota ştatının Senatı Azərbaycanın işğal altındakı Qarabağ torpaqlarında qurulan separatçı rejimin "müstəqilliyi"ni tanımaqla bağlı qərar verib. Bununla bağlı Rusiya mediası məlumat yayıb. Sözügedən məlumata görə, müvafiq qərar mayın 2-də Senatın qanunvericilik aktlarının saytında dərc edilib.**

*"Bizim üçün əsas göstərici Birləşmiş Ştatlar Administrasiyasının mövqeyidir"*

***Fikrət Sadıqov:** "Bu, erməni lobbisinin təsiri altında atılan addımdır"*

Qətnamədə erməni rejiminin "müstəqilliyi" tanınmaqla "azad və müstəqil" bir "dövlət"in yaradılması cəhdlərinə dəstək ifadə olunur. Bununla yanaşı, ştat, Prezident və Konqresi Qarabağdakı ermənilərin "öz müqəddəratını təyinetmə və müstəqillik hüququnu" dəstəkləməyə çağırıb. Eyni zamanda, mayın 5-i ştatda separatçı erməni rejiminin tanınması və ermənilərin, eləcə də "Artsax xalqı"nın Minnesotanın inkişafına verdiyi töhfə günü kimi qeyd edilməsi təklif olunur.

Beləliklə, Minnesota ABŞ-ın qondarma rejimin "müstəqilliyini" tanıyan növbəti ştatı oldu. Onu da qeyd edək ki, Minnesota Rod-Aylend, Massaçusets, Kaliforniya, Kolorado, Men, Luiziana, Corcoya, Miçiqan və Havay adalarından sonra separatçı rejimi tanıyan 10-cu ABŞ ştatıdır.

Görünən odur ki, ABŞ-dakı erməni lobbisi Qarabağdakı separatçı qurumun təbliği ilə bağlı bütün imkanlardan istifadə edir. Düzdür, Minnesota ştatı Senatının məlum bədnam qərarı ABŞ-ın dövlət siyasəti demək deyil. Birləşmiş Ştatlar qondarma separatçı rejimi tanımır. Ancaq, bütün hallarda, bəzi ABŞ ştatlarının Qarabağdakı separatçı qurumla bağlı məlum "qərarları" yolverilməzdir. Bundan erməni tərəfi təbliğat məqsədi üçün maksimum istifadə edir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən keçmiş diplomat Fikrət Sadıqov Minnesota ştatı Senatının məlum addımına bir neçə aspektdən yanaşdı: "Bizim üçün əsas göstərici Birləşmiş Ştatlar Administrasiyasının mövqeyidir. Yəni Ağ Evin mövqeyi. ABŞ-ın sözügedən məsələyə münasibəti bizə aydındır. O da ondan ibarətdir ki, Birləşmiş Ştatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyü birmənalı olaraq tanınır. Heç bir dövlət Qarabağdakı separatçı rejimi tanımır. Nəinki tanımır, eyni zamanda, hər dəfə orada "seçkilər" keçiriləndə ABŞ Dövlət Departamenti bəyanatla çıxış edir. Bəyan edir ki, belə bir dövlət yoxdur və orada keçirilən "seçkiləri" tanımırıq. Bax, budur bizim üçün əsas göstərici. O ki, qaldı bəzi ştatlarda bu kimi qərarların qəbul olunmasına, belə qərarlar kağız parçasıdır. Bu, erməni lobbisinin təsiri altında atılan addımdır. Belə təşəbbüslər heç bir məna daşımır və əhəmiyyət kəsb etmir. O cümlədən, Minnesota ştatı Senatının məlum qərarının heç bir hüquqi əsası yoxdur. Buna rəğmən, biz arxayınlaşmamalıyıq. ABŞ ştatlarında Qarabağ həqiqətlərinin təbliği istiqamətində səylərimizi artırmalıyıq".




**Vidadi ORDAHALLI**

# Rəsmi Moskva uydurma erməni genosidinin "105 illiyinə" hər hansı səviyyədə reaksiya vermədi - erməni elitası şokda...

**Erməni mediası Rusiyaya qarşı yeni antikampaniyaya start verib. Bu xüsusda qeyd edirlər ki, saxta erməni "soyqırımının" builki tarixi ilə bağlı Rusiyanın rəsmi dairələri səviyyəsində heç bir bəyanat verilməyib, bu məsələyə ümumiyyətlə münasibət açıqlanmayıb.**

Xüsusilə də Rusiyadakı "Lazarev klubu"nun son açıqlamasındakı bəzi məqamları önə çəkməklə Rusiyanı unutqanlıqda ittiham edirlər. Erməni siyasi elitası hətta qeyd edir ki, həmin hadisədən dərhal sonra Lavrov Ermənistanın maraqları ilə uzlaşmayan çoxlu sayda açıqlamalar verib. Doğrudan da müşahidələr göstərir ki, bu il 24 aprel tarixində Rusiyadan həmin mövzu ilə bağlı heç bir rəsmi mövqe ortaya qoyulmayıb. Rusiyanın bu mövqeyini nə ilə izah etmək olar? Görünən odur ki, Moskva artıq İrəvanın ikili siyasətindən bezib və indiki rəhbərliyə heç inanmır. İrəvan çoxsaylı kobud səhvlər edir. Erməni siyasi dairələrində, Rusiya ilə yanaşı, daha çox Qərb dövlətləri, NATO və Aİ ilə yaxınlaşmaq xəttinə üstünlük verilir. Biz görürük ki, iki il ərzində Lavrov Moskvanın mövqeyini İrəvanın diqqətinə çatdırır. Rusiya hökumətində belə ümid var ki, Paşinyanın getməsi ilə iki ölkə arasında münasibətləri mənfidən müsbətə qaldırmaq olar. Bununla yanaşı, Moskvanı İrəvanın indiki siyasəti də qane etmir. Onun Qərbə istiqamət götürməsi, KTMT ətrafında böhran, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öhdəliklərin yerinə yetirməməsi problemləri artırır. Belə fikirlər var ki, Ermənistan Rusiya ilə münasibətlərin kəsilməsinə, Avrasiya İqtisadi İttifaqından çıxmağa çalışır. Ermənistan iki stulda birdən oturmaq cəhdləri edir. Yəni həm Rusiya, həm də Qərblə əməkdaşlıq etməyə çalışır. Bununla belə, əsas diqqəti avrointeqrasiyanı gücləndirməsinə ayırır. Ermənistanın növbəti dəfə ikili əhəmiyyətli bioloji laboratoriyalara rusiyalı mütəxəssisləri buraxmamaq qərarı ölkənin Qərbə doğru istiqamət götürmə xəttinin davamı sayıla bilər. Növbəti gərginlik Rusiya xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı mövcud mərhələli həll planı barədə məlum bəyanatından sonra güclənib. Dərhal da rəsmi İrəvan bunu təkzib edib. Ardınca Rusiya XİN belə bir planın mövcud olduğunu bir daha təsdiq edib. Bu fonda İrəvan tərəfindən qazın qiyməti ilə bağlı narazılıqlar dilə gətirilib. Fakt budur ki, rəsmi İrəvan Paşinyanın timsalında hələ də Putinin etibarını qazana bilməyib. Proses iki ildir ki, davam edir.

Rusiyanın strateji müttəfiqindən növbəti narazılığını Lavrovun qazın qiyməti ilə bağlı verdiyi bəyanatdan da hiss etmək mümkündür. Rusiyanın baş diplomatı bildirib ki, müəyyən vəziyyətlərdə strateji münasibətləri yada salmaq düzgün deyil. Əlavə edib ki, vaxtilə qazı onlara satanda qiymət bazar qiymətlərindən iki-üç dəfə az idi.

Rusiyanın bu hadisələrin fonunda qondarma "soyqırım" mövzusuna toxunmamasında qeyri-adi nəsə yoxdur. Bütün bunlar Rusiya-Ermənistan münasibətlərinin getdikcə korlanan xətt üzrə inkişafını şərtləndirir.



**Məhəmmədəli QƏRİBLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın hərbi gedişləri Ermənistanı dalana dirəyir - işğalçı ölkədə "mərhələli həll"dən başqa yol qalmadığı ən müxtəlif səviyyələrdə etiraf olunur...

**Bu gün dünya miqyasında yenidən açıq etiraf edilir ki, Azərbaycan Ordusu istənilən vaxt düşmənə ən güclü, həlledici zərbə endirməyə və Ermənistanın işğal siyasətinə qısa zaman kəsiyində son qoymağa hazırdır. Bu fonda indi Ermənistanda böyük narahatlıqla qarşılanan məsələlərdən biri ordumuza yeni döyüş əməliyyatlarına hazır olmaq barədə əmr verilməsidir.**

Xatırladaq ki, bu ayın əvvəlində Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun rəhbər heyəti ilə xidməti müşavirə keçirib. Burada müdafiə naziri ordu rəhbərliyinin diqqətini son zamanlar düşmənin təxribat hərəkətlərinin aktivləşməsi ilə döyüş fəaliyyətlərinin yenidən başlanması ehtimalının kəskin artmasına yönəldib. Nazir tərəfindən ön xətdə və düşmən müdafiəsinin dərinliyində kəşfiyyatın bütün növlərinin gücləndirilməsi, döyüşə hazırolma planlarının dəqiqləşdirilməsi, qoşunların hərtərəfli təminatı, həmçinin intensiv dərslərin, məşqlərin və təlimlərin keçirilməsinə dair konkret tapşırıqlar verilib. Müdafiə naziri bütün səviyyələrdən olan komandirlərdən düşmənin müxtəlif təxribatlarının qarşısının alınması, cəbhənin bütün istiqamətlərində onun aktivləşməsinə qətiyyətlə yol verilməməsi və döyüş fəaliyyətlərinin aparılmasına hazır olmalarını tələb edib. Məhz bütün bunlar indi ermənilər tərəfindən böyük narahatlıqla qarşılanır. Məsələn, erməni ekspert Karen Ovhannisyan deyir ki, hərbi əməliyyatların yenidən başlaması haqqında Azərbaycandan həmişə siqnallar gəlir, lakin bir qayda olaraq, bunlar daha çox siyasi və ekspert sahəsindən gəlir:"Bu dəfə isə, məhz hərbi müfəttişliyin rəhbəri bu barədə birbaşa danışır. "Hərbi əməliyyatların yenidən başlaması ehtimalı yüksəkdir" ifadəsi, ən azından, aprel döyüşlərindən sonra açıq mətnlə və ya ictimaiyyət üçün əlçatan versiya ilə Azərbaycanın hərbi rəhbərliyi tərəfindən deyilməmişdi. Amma indi deyilir və yaxın tezlikdə yeni savaş başlana bilər". Ovhannisyan bildirib ki, Azərbaycan müdafiə naziri mənəvi-psixoloji vəziyyəti yüksəltmək üçün əvvəllər qoşuna bu şəkildə müraciət etməyib. Erməni hərbi ekspert Gevorq Gevorqyan da vəziyyətin Ermənistan üçün narahatedici olduğunu bildirir: "Azərbaycan savaşa başlamağa hazırlaşır. O bunun üçün lazımı şərait yetişdiyni düşünür. Biz ölkəmizin təhlükəsizliyinin və dövlətçiliyimizin əsaslarının süquta uğramasına icazə verə bilmərik. Amma durum bizim lehimizə deyil". O qeyd edib ki, Azərbaycanın hərbi rəsmiləri açıq şəkildə ərazi bütövlüyünün bərpası haqqında danışır və onların istəkləri müharibəyə başlamaq müqəddiməsindən başqa bir şey deyil. Bu durumda düşmənin narahatlığını artıran daha bir məqam Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev, eləcə də Zakir Həsənov və Müdafiə Nazirliyinin digər rəhbər heyəti cəbhə bölgəsindəki hərbi hissələrin silah və hərbi texnikasının döyüş qabiliyyətini yoxlamasıdır. Düşmən ölkədə bütün bunlar təsadüfi sayılmır və ordumuzun savaşa hazırlıq məşqi kimi qəbul olunur. Həqiqətən də hərbi texnikanın modernləşdirilməsi, yeni növ silah-sursatın alınması, müasir silahlardan istifadə edə bilən hərbçilərin formalaşması və digər amillər ordumuzun həm texnika, həm canlı qüvvəsinin yüksək səviyyədə təminatından xəbər verir. Bu fonda ordumuzun hər an başlana biləcək hücumu erməniləri darmadağın etmək üçün kifayətdir. Bunu rus politoloq Oleq Kuznetsov da xüsusi olaraq vurğulayır. O qeyd edir ki, Azərbaycan ordusu gücləndiyi halda, Ermənistanda tamam fərqli vəziyyətdir:"Ermənistanın hərbi-siyasi vəziyyəti koronavirus pandemiyası şəraitində o qədər pisləşib ki, artıq bu ölkənin yalnız dərin böhran içində deyil, həm də humanitar fəlakətin astanasında olduğu kənardan da aydın görünür. Əhali artıq qara günə hesablanmış bütün ehtiyatları işlədir, sosial etirazlar başlayır və insanların yaşayış səviyyəsinin kəskin düşməsi fonunda cinayətlərin sayı artır. Belə şəraitdə Dağlıq Qarabağ mövzusu sadə ermənilərin gözündə getdikcə daha çox aktuallığını itirir. Ermənistan hakimiyyəti hər cür qanunsuz radikal təbliğatdan istifadə etməklə cəmiyyətin gözündən pərdə asmağa çalışır. Amma Ermənistan hərbi, siyasi, iqtisadi müstəvidə çox zəifləyib və yeni Qarabağ savaşı Ermənistan üçün dağıdıcı olacaq.

Digər tərəfdən, bu durumda müasir erməni siyasi ritorikasının yeni tendensiyasının antirusiya yönümlü olduğu da gözə çarpır. Bu ölkədə ictimai-siyasi diskurs trendinin mütəşəkkil formada dəyişdirilməsi göz qabağındadır". Politoloq vurğulayıb ki, bu, Rusiya xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların formatına və məzmununa dair bəyanatından sonra Rusiya-Ermənistan münasibətlərində baş vermiş diplomatik qalmaqalda daha qabarıq göründü. Kuznetsovun sözlərinə əsasən, indi İrəvan anlayır ki, Rusiya artıq işğalçı rejimi dəstəkləməyəcək və Ermənistanı sülh yolu ilə torpaqları qaytarmağa vadar edəcək:"Yeni erməni ictimai şüuru paradiqmasının dəyişməsinə açıq-aydın cəhd göstərilir. Əgər əvvəllər "Qarabağ Azərbaycanın təcavüzündən qorunmalı olan əzəli erməni torpağıdır" fikri semantik dominant idisə, indi o, İrəvanın münaqişənin hərbi həlli ilə üz-üzə qalacağı ilə bağlı günahkarı kənarda axtarmaq barədə söhbətlərə doğru əhəmiyyətli dərəcədə dəyişir. Əslində, hazırda rəsmi erməni təbliğatı öz həmvətənlərinin kütləvi şüurunu 1988-1994-cü illər müharibəsinin nəticəsinə yenidən baxılacağı həqiqətini daha ağrısız qavramasına hazırlayır". O əlavə edib ki, şübhəsiz, Ermənistanda siyasi rejimin dəyişməsi, "Qarabağ klanı"nın və ya Dağlıq Qarabağın erməni separatçılarının qanunsuz silahlı birləşmələrinin səhra komandirlərinin hakimiyyətdən uzaqlaşdırılması bu tendensiyanın formalaşmasında prinsipial rol oynayıb. Lakin bu transformasiyanın başlanğıc nöqtəsi 2016-cı ilin aprel döyüşlərində baş verib. Məhz onda hamıya aydın oldu ki, Azərbaycan öz ərazi bütövlüyünü güc yolu ilə də bərpa etməyə qadirdir:"Buna görə də hazırkı şəraitdə İrəvanın vəziyyətdən yalnız bir ağıllı çıxış yolu var - ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə planını yerinə yetirmək və işğal edilmiş bütün torpaqları mərhələli şəkildə Azərbaycanın yurisdiksiyasına qaytarmaq".

Digər politoloq, milli münaqişələr eksperti Yevgeniy Mixaylov da Ermənistanı məntiqi addımlar atıb, işğala son qoymağa dəvət edir. Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinin, ilk mərhələdə keçmiş DQMV ətrafındakı əraziləri qaytarmağın vacibliyinə dair Rusiya xarici işlər naziri Sergey Lavrovun son açıqlamasını xatırladan ekspert bildirib:"Fikrimcə, Lavrovun bu sözləri təsadüfi deyil. Deməli, hansısa ilkin razılaşmalar olub. Ermənistanın indiki hökuməti əslində əldə edilmiş bütün razılaşmaları pozaraq Rusiya ilə onsuz da gərgin olan münasibətləri daha da korlayır. Rusiya Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olub və indi də tərəfdardır. Rusiya həmişə deyir ki, Ermənistan Avrasiyanın bir parçasıdır, Qərbə çox boylanmamalıdır. Öz yurdunda yaşamalı, ümumi iqtisadi məkanda qalmalıdır". Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız xeyir verəcək:"Ermənilər qonşuları ilə danışıqlara başlasa, öz iqtisadi vəziyyətlərini düzəldər, gəlirləri artar, sərhədləri açılar, gediş-gəliş başlayar. Bütün regionda böyük iqtisadi sıçrayış baş verər. Bütün bunları Ermənistanda dərk etməyə bilməzlər. Ermənistan xarici işlər naziri Mnatsakanyan güzəştlərə getməyəcəklərini deyirsə, deməli, oyuna üçüncü qüvvə daxil olub. Mənim fikrimcə, həmin qüvvə regionda sülhü istəməyən ABŞ və müttəfiqləridir. Burada daim közərən gərginliyin olması onlara sərf edir. İndi bütün Cənubi Qafqazda vəziyyəti qarışdırmaq üçün ermənilərdən istifadə edəcəklər."Hazırda Ermənistan taleyüklü seçim qarşısındadır. Bundan sonra ya Amerika ilə, ya da Rusiya və onun müttəfiqləri ilə yol yoldaşı olacaq. Azərbaycan isə Rusiyanın müttəfiqidir. Azərbaycan bütün regionun inkişafında maraqlıdır. Ermənistandakı mövcud hökumət getməsə, məsələnin həlli üçün perspektiv görmürəm". Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan isə qeyd edir ki, əslində İrəvan çıxılmaz durumda olduğundan, Qarabağ məsələsində ona diqtə edilənləri icra etməyə məcburdur:"Bu mənada, Rusiya xarici işlər naziri Sergey Lavrovun bəyanatından sonra erməni cəmiyyətinin siyasi dairələrində Lavrovun yalan danışdığı, Nikol Paşinyan və ya ən azı Zöhrab Mnatsakanyanın birbaşa şəkildə bu bəyanatı təkzib edəcəyi ilə bağlı sadəlövh inam var idi".

Onin sözlərinə görə, reallıq isə başqa şey deyirdi:"Reallıq o idi ki, Rusiya xarici işlər naziri Qarabağ danışıqları ətrafında davam edən prosesləri ortaya qoydu. Bu hakimiyyət Nikol Paşinyanın başçılığı ilə iki il davamlı olaraq bu proseslər haqqında erməni cəmiyyətini aldadırdı və müntəzəm şəkildə iddia edirdi ki, danışıqlar yoxdur, sənəd yoxdur. Lakin gördüyümüz kimi, Rusiya xarici işlər nazirinin bəyanatı təkzib edilmədi, əksinə, əslində Ermənistan xarici işlər nazirinin mayın 4-də geniş, aldadıcı və çaşdırıcı qiymətləndirmələrində qırmızı xətlə Lavrovun haqlı olduğu, Nikolun isə yalan danışdığına dair şüuraltı bir fikir keçirdi". Aşotyan qeyd edib ki, Zöhrab Mnatsakanyan onların hansı informasiyaya sahib olduğunu yaxşı bilir. Bu fonda da artıq bəllidir ki, Qarabağ məsələsində Ermənistan çətin bir mövqedədir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**Ermənistanın "Media müdafiəçisi" təşəbbüsü 2020-ci il aprelin 21-dən 30-na qədər onlayn mətbuatda Nikol Paşinyanın şəxsiyyəti və fəaliyyəti ilə bağlı məqalələri izləyib. Məlum olub ki, Paşinyan haqqında nəzərdən keçirilmiş məqalələrin əksəriyyəti mənfidir.**

# Ermənistan mediası mütləq əksərən Paşinyana qarşı - tək aprel monitorinqinin dəhşətli nəticəsi...



## *Yadigar Məmmədli: "Yerli mətbuatda bunların öz əksini tapması narazılığı özündə ifadə edir"*

Erməni mediası yazır ki, bununla əlaqədar Ermənistanın daxili 5 xəbər saytı - "1in.am", "news.am", "armtimes.com", "aravot.am" və "tert.am" nəşri izlənib. İzləmə nəticəsində seçilmiş 5 saytda 573 məqalə nəşr olunub. Bunlardan 150-si mənfi, 32-si müsbət, 391-i neytral olub. Belə ki, "news.am" nəşrində 178 məqalə nəşr olunub, bunlardan 69-u mənfi, 7-si müsbət, 102-si neytral olub. "Aravot.am" nəşrində 114 məqalə nəşr olunub ki, bunlardan 42-si mənfi, 6-sı müsbət, 66-sı neytral olub. "Armtimes.com" nəşrində 2-si mənfi, 6-sı müsbət, 102-si neytral olmaqla 110 məqalə işıq üzü görüb. "1in.am" nəşrində 7-si mənfi, 12-si müsbət, 88-i neytral olmaqla 107 məqalə nəşr olunub. "Tert.am" nəşrində isə 62 məqalə nəşr olunub. Bunlardan 30-u mənfi, 1-i müsbət, 31-i neytral olub.

Erməni mediası qeyd edir ki, Paşinyan haqqında nəzərdən keçirilmiş məqalələrin əksəriyyəti mənfidir.

Bununla yanaşı, Ermənistan Jurnalistlər Birliyinin Ümumdünya Mətbuat Azadlığı Günü münasibətilə yaydığı bəyanatında deyilir ki, hazırkı hakimiyyət azad mətbuata düşmən kimi baxır: "Hər bir ölkədə, xüsusilə də demokratik dövlət və cəmiyyətlərdə kütləvi informasiya vasitələri təməl daşı əhəmiyyətinə malikdir, çünki onların işi vasitəsilə demokratiyanın əsas funksiyalarından biri - hakimiyyətlərin, ictimai idarəetmə orqanlarının işinə qarşı nəzarət və hesabatlılıq təmin olunur. Ancaq təəssüf ki, hazırkı hakimiyyət azad mətbuata rəqib və düşmən kimi baxır".

Bütün bunlar onu göstərir ki, Ermənistan cəmiyyətində Paşinyan hakimiyyətindən narazılıq get-gedə artmaqdadır.

*"Ancaq çox qəribədir ki, mətbuat azadlığı ilə bağlı beynəlxalq hesabatlarda bütün bunlar öz əksini tapmır"*

Bununla belə, hakimiyyətə gəldiyindən bəri özünü demokratiya fədaisi kimi təqdim edən Paşinyan və onun komandası azad mətbuata düşmən gözü ilə baxır.

Məsələyə münasibət bildirən media eksperti Yadigar Məmmədlinin fikrincə, erməni mətbuatında Paşinyan barədə çoxsaylı mənfi yönümlü yazının getməsi onun fəaliyyətindən narazılığın göstəricisidir: "Bütün bunlar onu göstərir ki, Paşinyanın verdiyi vədlərin özünü doğrultmaması, həyata keçirdiyi işlərin əks nəticələrə gətirib çıxarması ictimai narazılığı artırır. Yerli mətbuatda bunların öz əksini tapması narazılığı özündə ifadə edir. Bu həm də onu göstərir ki, Paşinyan səriştəsiz siyasətçidir. Digər tərəfdən, Paşinyan baş nazir olandan sonra özündən əvvəlki hakimiyyətdən fərqli siyasət yürütməyib. Əvvəlki kimi, Azərbaycana yönəlik işğalçılıq siyasəti dəstəklənib və azad media sıxışdırılıb.

Özünə yaxın olan mətbuata və orada təbliğ olunmasına önəm verib. Fərqli mövqedən çıxış edən media orqanları sıxışdırılıb. Azad mətbuata qarşı heç vaxt ədalətli mövqe sərgiləməyib. Bir sıra faktları üzə çıxaran jurnalistlər təqib olunur. Onlar müxtəlif formada təqib olunurlar. Ancaq çox qəribədir ki, mətbuat azadlığı ilə bağlı beynəlxalq hesabatlarda bütün bunlar öz əksini tapmır. Söz azadlığından danışan bəzi beynəlxalq təşkilatlar bütün bunları görməzdən gəlirlər. Azərbaycanla bağlı bir şey olan kimi, tez hay-küy salırlar. Məsələnin paradoksal tərəfi həm də budur".

***Vidadi ORDAHALLI***

---

**Çin-Avropa yükdaşımalarında yeni dəmir yolu marşrutu üzrə hərəkətə mayın 4-də start verilib. Belə ki, Çinin İu şəhəri ilə Litvanın paytaxtı Vilnüsü birləşdirən marşrutun uzunluğu 10 min 146 kilometrdir. Marşrut Qazaxıstan, Rusiya və Belarusun ərazisindən keçir. Yüklər Vilnüsdən Avropanın daha 36 ölkəsinə, o cümlədən, İspaniya, Danimarka, İsveçrə və Fransaya daşınacaq.**

# Çin Avropaya yeni dəmir yolu marşrutu açdı - ermənilərin sevinci əbəsdir...



## *Rəsul Cahangirli: "Bu o demək deyil ki, İpək Yolu ilə yükdaşımalar azalacaq"*

Yeni xəttin istifadəyə verilməsi pandemiya şəraitində poçtların daşınması üçün yeni kanal yaradıb. Gələcəkdə həmin marşrut üzrə reyslərin həftədə bir dəfə həyata keçiriləcəyi gözlənir. Hazırda İu şəhəri 12 yükdaşıma marşrutu ilə bütün Avrasiya üzrə 37 ölkə və regionla birləşib. Son statistikaya əsasən, cari ildə bu şəhərdən Avropaya 133 yük qatarı göndərilib. Həmin qatarlar 11 min standart konteyner daşıyıb ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 44 faiz çoxdur.

Onu da qeyd edək ki, Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin iştirakçısıdır. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (Avropa İttifaqının TRACECA proqramı) Frankfurtu (Almaniya) Şanxayla (Çin) birləşdirir. 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tiflis-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Bakı-Tiflis-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldıb. Sözügedən marşrut xətti üzrə yükdaşımaların həcmi 10 milyon tonu keçib. İlbəil İpək Yolu vasitəsilə yükdaşımalar artır.

Maraqlıdır, Çinin İu şəhəri ilə Litvanın paytaxtı Vilnüsü birləşdirən yeni dəmir yolunun aşılışı hansı zərurətdən yaranıb? Azərbaycandan keçən İpək Yolu Çinə yükdaşımalarda kifayət etmirmi? Ən nəhayət, Ermənistan Çindən Avropaya açılan yeni dəmir yolundan istifadə edə biləcəkmi?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli buna bir neçə kontekstdən yanaşdı: "Məsələ ondadır ki, yeni dəmir yolunun marşrutu bir qədər fərqli istiqamətdədir. Sözügedən dəmir yolu ilə yüklər əsasən Şimali Avropa istiqamətində daşınacaq. Çin böyük əraziyə və iqtisadiyyata malik olan ölkədir. Bu səbəbdən yükdaşımalarda müxtəlif marşrutlardan istifadə edilməsi təbiidir. Bu o demək deyil ki, İpək Yolu ilə yükdaşımalar azalacaq. Ticarət əlaqələrində də Bakı-Tiflis-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır. Eyni zamanda, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Ona görə də düşünmürəm ki, yeni dəmir yolu Azərbaycan üzərindən daşımalara mənfi təsir edəcək. Bu mümkün deyil. Ermənistanın isə sözügedən yeni dəmir yolundan istifadə etmək perspektivi yoxdur. Çünki coğrafi baxımdan həmin dəmir yolu xətti Ermənistandan çox aralı keçir. Digər tərəfdən, Ermənistan dünya ilə dəmir yolu əlaqəsini Gürcüstan vasitəsilə həyata keçirir. Ancaq Abxaziyadan gələn dəmir yolu bağlı olduğundan, bu imkan natamamdır. Ən yaxşı halda, Ermənistan Poti limanı ilə əlaqə qura bilər".

*"Ermənistanın isə sözügedən yeni dəmir yolundan istifadə etmək perspektivi yoxdur"*

***Vidadi ORDAHALLI***

**Son illər Ermənistanda mövcud olan siyasi-iqtisadi, sosial böhran get-gedə dərinləşməkdədir. Vəziyyət o qədər acınacaqlıdır ki, bu ölkədə doğum sayı ölüm sayından çox aşağı səviyyədədir. "Novosti Armeniya"nın yaydığı məlumata görə, Ermənistan əhalisinin sayı 30 ildir üç milyona çatmır. Nəşr son 30 ildə Ermənistan əhalisinin sayının azaldığını yazır.**

# Ermənilər son 30 ildə 3 milyona çata bilmir - azərbaycanlıların zorla çıxarılması ermənilərin artımına mənfi təsir göstərib...

***İsmayıl Tanrıverdi:** "200 mindən çox azərbaycanlının deportasiya edilməsi, 70-75 min yezidi kürdün yoxsulluqdan Ermənistanı tərk etməsi, eləcə də dövlətin yürütdüyü zərərli siyasət..."*

Ermənistanın Statistika Komitəsinə istinadən yayılan məlumata görə, 2011-ci ildə keçirilən əhalini siyahıyaalma hesabatına əsasən, 2020-ci il yanvarın 1-də Ermənistan əhalisinin sayı 2 959 500 nəfər olub. Bu isə 2019-cu ilin uyğun dövrü ilə müqayisədə 5 600 nəfər azdır.

Bir sıra ekspertlər hesab edirlər ki, Ermənistan əhalisinin sayında artım halının baş verməməsi bir neçə əsas amillə bağlıdır. Demoqrafların fikrincə, bu ölkənin yerli əhalisi olan azərbaycanlıların ermənilər tərəfindən Ermənistandan kütləvi şəkildə deportasiya edilməsi, yezidi kürdlərin buradan baş götürüb başqa ölkələrə getməsi, ermənilərin isə aclıqdan, yoxsulluqdan xilas olmaq üçün Avropaya və Rusiyaya üz tutması nəticəsində mövcud problem yaranıb.

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Erməni Araşdırmaları Tədqiqat və Tədris Mərkəzinin böyük elmi işçisi, ermənişünas İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistan əhalisinin sayının azalmasına əsas səbəb ölkədəki acınacaqlı durumdur. Sovet dövründə SSRİ büdcəsindən ayrılan dotasiya hesabına mövcudluğunu qoruyan yeganə respublika kimi Ermənistanın bu gün isə xarici ölkələrin verdiyi ianə ilə yaşadığını deyən İ.Tanrıverdinin sözlərinə görə, SSRİ dövründə bu ölkənin kənd təsərrüfatı yerli azərbaycanlılar hesabına inkişaf edib. Həmin dövrdə bu sahənin 60 faiz Azərbaycan rayonlarının, azərbaycanlıların səyi nəticəsində təmin olunduğunu qeyd edən müsahibimizin bildirdiyinə görə, hələ Sovet dövründən ermənilər kənd təsərrüfatının ayrı-ayrı sahələri ilə məşğul olmaqdan imtina edərək SSRİ-nin müxtəlif şəhərlərinə çıxıb gedirdilər. O, həmçinin, qeyd etdi ki, bu ölkənin qoyunçuluq təsərrüfatı isə yezidi kürdlərin hesabına inkişaf edirdi.

"Ermənistanda əhalinin real sayı təxminən iki milyon nəfərdir. Onlar xarici ölkələrdə yaşayan erməniləri də qeydiyyata almaqla sayı bir qədər qaldırmaq istəyirlər. Nə qədər cəhd etsələr də, ermənilərin sayı heç 3 milyon deyil. Hələ Sovet dövründən ermənilər başqa respublikalara işləməyə gedirdilər. Onlara ermənilər özləri "xapançi" deyirlər. Bu gün ermənilər Ermənistandan çox Rusiyada yaşayırlar. Hazırda Rusiyada 2 milyon erməni yaşayır. Hətta bir dəfə Rusiya Prezidenti Vladimir Putin yığıncaqlardan birində Rusiyada fəaliyyət göstərən erməni diasporunun rəhbəri Ara Abramyana üzünü tutub Rusiyada yaşayan ermənilərin sayını soruşdu. Təbii ki, o da erməni xislətinə sadiq qalaraq sualdan yayınmaq istədi. Amma Putin buna imkan verməyib dedi ki, siz demək istəməsəniz də, mən Rusiyada 2 milyondan çox erməninin yaşadığını bilirəm. Sarkisyan dövründə də xeyli sayda erməni Ermənistanı tərk edib müxtəlif ölkələrə getdi. Ermənilər ümid edirdilər ki, Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistanın iqtisadiyyatı düzələcək və onlar geri qayıdacaqlar. Amma Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanda vəziyyət daha da pisləşdi. Bu gün Ermənistan iqtisadiyyatı böhran içindədir. Ona görə də ermənilər bura qayıtmaq istəmirlər.

Bilirsiniz, son 30 ildə Ermənistanda yalnız geriləmələr baş verir və nəticədə də ölkə əhalisi başqa ölkələrə çıxıb gedir. Paşinyan rejiminin günahı ucbatından vəziyyət daha da kəskinləşib.



*"Son 30 ildə Ermənistanda yalnız geriləmələr baş verir və nəticədə də ölkə əhalisi başqa ölkələrə çıxıb gedir"*

Ümumiyyətlə, buradan 200 mindən çox azərbaycanlının deportasiya edilməsi, 70-75 min yezidi kürdün yoxsulluqdan Ermənistanı tərk etməsi, eləcə də dövlətin yürütdüyü zərərli siyasət bu ölkənin demoqrafik inkişafına mənfi təsir göstərdi. Hazırda Ermənistanda 6 min yezidi kürdü ailəsi yaşayır".

İ.Tanrıverdi, həmçinin, vurğuladı ki, 1988-1989-cu illərdə Ermənistanın Amasiya rayonunda "raykom"da ideoloji şöbənin müdiri olarkən bu ölkə ərazisində baş verən bütün prosesləri yaxından izləyib. Onun qeyd etdiyinə görə, Ermənistan hökuməti yalan məlumatlar yayır ki, guya ki, 1988-ci ildə bu ölkə ərazisində baş verən zəlzələ zamanı ölənlərin sayı 75 min nəfər olub. Ermənilərin hətta o vaxt zəlzələ ilə əlaqədar Gümrüyə gələn keçmiş SSRİ-nin prezidenti Mixail Qorbaçovu aldatmağa da cəhd ediblər, lakin o, ermənilərin yalanını ifşa edib. Müsahibimiz qeyd etdi ki, Qorbaçovun göstərişi ilə Moskvada yaradılan komissiyanın araşdırması nəticəsində zəlzələ zamanı tələf olan insanlarının sayının 75 min nəfər deyil, 24 min nəfər olduğu müəyyən edilib. "Ermənilər o zaman sayı ona görə şişirdirdilər ki, daha çox yardım alsınlar. Çünki özünün heç bir gəliri olmayan, yalnız SSRİ-dən aldığı dotasiya ilə dolanan bir ölkə yalanlar uydurmaqla daha çox yardım almaq istəyirdi. O dövrdə Ermənistana ən çox yardım edən respublika Ukrayna idi. Ermənilər Ukraynanı əməlli-başlı müflis etdilər. Rusiya və digər ölkələr də Ermənistana yardımlar edirdilər. Amma hazırda koronavirusla əlaqədar olaraq bu ölkələr yardımı dayandırıblar. Çünki onların özlərinin də iqtisadi vəziyyəti yaxşı deyil" - deyə İ.Tanrıverdi qeyd etdi.

***İradə SARIYEVA***

**Cənubi Qafqaz ölkələri arasında bu gün koronavirus pandemiyasının ən çox zərər vurduğu ölkə kimi Ermənistanın çıxış etməsi müşahidə edilir. Ağır iqtisadi durum, zəif səhiyyə səbəbindən Ermənistanda virusa yoluxanların sayı 3 minə çatır. Məlumata görə, ölkədə pandemiyadan ümumilikdə 40-dan çox insan ölüb.**

# Pandemiya Paşinyan hakimiyyətinin sonunu gətirir - ölkədə "infeksiya onun özü və hakimiyyəti üçün ölümcül olacaq" fikri hakimdir...

Amma bu ölkə üçün dəhşətli günlərin hələ qarşıda olduğu bildirilir. Artıq bu xüsusda ermənilər özləri də həyəcan təbili çalır.

Baş verənləri şərh edən erməni ekspert Miqran Akobyan bildirir ki, ölkədə vəziyyət sürətlə pisləşməyə doğru gedir: "Koronavirusa qarşı mübarizə Ermənistanın hazırkı rejimini məhv edib və indi o, hansısa bəyanatlarla özünü xilas etməyə çalışır". Ermənistanda mayın 4-dən etibarən məhdudiyyətlərin qismən aradan qaldırılmasına toxunarkən o bildirib: "1 ölüm olanda niyə fövqəladə vəziyyət elan edirsən və sonradan ölümlərin və yoluxanların sayı sürətlə çoxaldığı halda niyə fövqəladə vəziyyəti aradan qaldırırsan? Məntiq nədir? Məntiq budur ki, koronavirusa qarşı mübarizə hazırkı rejimi məhv edib və bütün bu ölümlərə görə, baş nazir Paşinyan başda olmaqla, məsul şəxslər cavabdehdir". Erməni mediası isə qeyd edir ki, koronavirus infeksiyanın yayılmasından sonra Ermənistan hökuməti artıq depressiyaya düşüb. "168.am" nəşri yazır ki, böhran Ermənistan hakimiyyəti üçün ağır bir imtahandır, fərqli bir şey gözlədikləri halda, tam başqa bir şey baş verir: "Belə olan halda hər şeyi yenidən başlamaq lazımdır. Ancaq bu da asan deyil. Bundan əvvəl iqtisadi böhranın aradan qaldırılması və insanların gündəlik çörək probleminin həlli barədə düşünməliyik. İtirdiyiniz şeyləri geri qaytarmaq üçün nə qədər vaxt lazım olacağını saymadan bunları etmək lazımdır. İndilikdə isə böhranlar səlahiyyətlilərin oyun kartlarını qarışdırır. Təəccüblü deyil ki, hər şeydə misli görünməmiş böyümə axtaran baş nazir də nikbinliyini itirib. Düzdür, bəzən bəzi ruhlandırıcı qeydlər etməyə çalışır, amma bu qeydlər əvvəlki gücə sahib deyil. İnfeksiya onun özü və hakimiyyəti üçün ölümcül olacaq. Ölkə getdikcə böhran vəziyyətinə düşür. Artım üçün heç bir perspektiv yoxdur. Gözləntilər, demək olar ki, bütün istiqamətlərdə mənfiyə doğru dəyişib. Halbuki, Ermənistan hakimiyyəti virusla bağlı təsirlərin qısamüddətli olacağını düşünürdü, lakin bu cür ümidlər tədricən tükəndi. Hazırda iqtisadiyyatın dərin tənəzzülü və yavaş bərpa olunması ilə əlaqəli risqlər daha çoxdur. Hökumət iqtisadiyyatda gözlənilən azalmanı 2% səviyyəsində qiymətləndirir. Ancaq bunun da son olmadığı ehtimal edilir. Bir müddət əvvəl gözləntilər hətta müsbət idi, 2-3% artım gözlənirdi. Bu gün bu nikbinlik yoxdur. Proqnozlar çox tez, əsasən eniş istiqamətində dəyişir. Hökumət Ermənistan iqtisadiyyatının məruz qalacağı təsirləri dəyərləndirib. Xarici sahədə bu təsirin bir neçə istiqamətdə olacağı ehtimal olunur. İxrac sektorunda itkilər gözlənilir. İqtisadiyyat ilin əvvəlindən bu cür itkilərə məruz qalıb. Bunlar həm beynəlxalq, həm də Rusiya bazarlarında baş verən proseslərlə bağlıdır. Bu mərhələdə dünya bazarı, ilk növbədə xammalın, xüsusən də metalların qiymət dəyişiklikləri şəklində Ermənistan iqtisadiyyatı ilə əlaqəlidir. Təsirlər yanvar ayından bəri mənfi olub. İqtisadi vəziyyət pisləşdikcə hökumət vergi ilə ÜDM nisbətində azalma gözləyir. Bu nə deməkdir, bu, kölgə iqtisadiyyatının dərinləşəcəyi deməkdir". Elə keçmiş baş nazir Qrant Baqratyan da vəziyyətin yaxşı olmadığını qeyd edir və bildirir ki, Ermənistanda koronavirus epidemiyası ilə bağlı situasiya sadəcə olaraq dəhşətlidir:"Martın 15-də dünyada hər yüz min adama 2 xəstə düşürdü, Ermənistanda isə 0.4 xəstə. Bu gün dünyada hər yüz min adama 46 xəstə düşür, Ermənistanda isə 91. Yəni biz bütün dünyanı ötüb keçmişik". O qeyd edib ki, Ermənistanda fövqəladə vəziyyət rejimi formaldır. Qrant Baqratyan Gürcüstanı misal gətirib:"Bu gün Gürcüstanda vəziyyət bizdən 7 dəfə yaxşıdır. Az qala 10 milyon əhalisi olan Azərbaycanda isə cəmi 1800-ə yaxın adam yoluxub. Bu gün mən arzu edirəm ki, baş nazir Georgi Qaxariya iki həftəliyinə Ermənistana gəlsin və hökumət başçısı postunu tutsun, göstərsin ki, epidemiya ilə necə mübarizə aparırlar. Biz formal olaraq fövqəladə vəziyyət elan etdik. Səhiyyə naziri heç nə dərk etmədən, nə dediyini anlamadan bildirdi ki, tibbi maska heç nəyi həll etmir. Hakimiyyət gücləndirilmiş rejimə hazır deyil, onlar koronavirusu məmnuniyyətlə, "keflə" dəf etmək istəyirlər. Çində artıq bir neçə həftədir heç kim koronavirusdan ölmür, amma maskasız küçəyə çıxanı cərimələyirlər. Ermənistanda isə heç bir mağaza cərimələnməyib". Bu durumda "Fitch" reytinq təşkilatı da ermənilərin durumunun ağır olduğunu vurğulayır. Reytinq şirkətinə görə, koronavirusun zərbəsi Ermənistan iqtisadiyyatına mənfi şok təsiri göstərir. Ancaq daha pis olan bunun nisbətən yüksək xarici borc şəraitində baş verməsidir.



**Şirkət mütəxəssislərinin fikrincə, epidemiya vaxtında idarə olunmasa risqlər daha da dərinləşəcək. Qurumun ekspertləri bildirir:"İkinci bir yoluxma dalğası olarsa və məhdudlaşdırıcı tədbirlər yenidən tətbiq olunarsa, Ermənistanla bağlı iqtisadi və maliyyə proqnozlarımız yenidən mənfiyə doğru dəyişiləcək". Ermənistan Mərkəzi Bankının proqnozlarına görə, Ermənistanın iqtisadi artımı əvvəlki illə müqayisədə cəmi 0,7% təşkil edərək, demək olar ki, 11 dəfə yavaşlayacaq. İqtisadi fəaliyyətin yavaşlaması isə dövlət büdcəsindən vergi daxilolmalarının toplanmasına da mənfi təsir göstərəcək.**

***Nahid SALAYEV***

# Vətəndaşlar Azərbaycanda pandemiyanın ikinci dalğasını anbaan yaxınlaşdırır - Qərargahın xəbərdarlığı reallaşa bilər...

**Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin yumşaldılması sui-istifadə hallarına səbəb olub. Məsələ burasındadır ki, bütün mütəxəssislər aprel ayının sonlarından etibarən ölkə ərazisində koronavirusun tamamilə məhv olacağını proqnozlaşdırırdı. Əvvəlki həftələrdə sağalmaların yoluxmaları iki-üç dəfə, bəzən də beşqat üstələməsi proqnozların özünü doğrultduğunu ehtimal etməyə əsas verirdi.**

Lakin ölkə ərazisində karantin rejiminin yumşaldılması nəticəsində tamamilə yeni bir mənzərə ilə qarşılaşmalı olduq.

Aydın şəkildə görsəndi ki, ölkə vətəndaşları yumşalma prosesindən sui-stifadə edir, karantin rejiminin qüvvədə olan vacib qaydalarına əməl etməkdən yayınırlar. Bunun nəticəsdir ki, respublikada 76 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 28 nəfər isə müalicə olunaraq sağalıb və evə buraxılıb. Bu rəqəm özü göstərir ki, yoluxma sağalmanı az qala üç dəfəyə yaxın üstələyib.

Bildiyimiz kimi, vətəndaşların xeyli hissəsi karantin rejiminin mövcud qaydalarına əməl etmir, avtobuslarda, mağazalarda, eləcə də digər yerlərdə sosial məsafəni qorumur. Hər yerdə insanlar bir-birinə çox yaxın məsafədə dayanır, avtobuslarda sərnişinlər lap sıx-sıx dayanır. Hətta Masazır qəsəbəsində yaşayan daimi oxucularımızdan biri bizimlə əlaqə saxlayaraq insanların kütləvi olaraq yaxın məsafədə dayandıqlarından şikayət edir. Deyir ki, elə bil qəsəbənin içində yarmarka açılıb və insanlar o yarmarkaya gəliblər. Bu hal şəhərimizin müxtəlif yerlərində, ən çox da ucqar qəsəbələrdə yaşanır. Sözsüz ki, bu təqdirdə də yoluxma sayının artması qaçılmazdır.

Yeri gəlmişkən, artıq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) məsələyə münasibət bildirib. TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində "Situasiya yenidən pisləşsə, karantin rejimi yenidən sərtləşdirilə bilər"- deyə qeyd edib.

O, insanlara karantin tədbirlərinə əməl etməsi üçün çağırış da edib: "Biz yenidən xalqa müraciət edirik ki, karantin rejiminin daha da yumşaldılmasını istəyirik, sərtləşməsini istəmirik. Bizim üçün önəmli olan insanların sağlamlığıdır. Qaydalara əməl etməklə karantindən çıxmaq olar".

Y.Qarayeva əlavə edib ki, ölkədə yeni yoluxma halları həm Bakıda, həm də regionlarda müşahidə edilib. Onun sözlərinə görə, yumşaldılma tədbirlərinin tətbiq edildiyi ərazilərdə də yoluxma sayı artarsa, karantin tədbirləri yenidən sərtləşdirilə bilər.

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni təəssüflə qeyd etdi ki, xüsusi karantin rejiminin yumşaldılması nəticəsində vətəndaşların məsələyə münasibətində bir boşluq yaranıb: "Bəzi vətəndaşlar elə düşündülər ki, yumşaldılma baş veribsə, bu, karantin rejiminin sona çatması deməkdir, maskasız da gəzmək, sosial məsafəni qorumamaq da olar, yoluxma ilə bağlı heç bir problem olmaz. Təbii ki, bu, vətəndaşların pandemiyaya laqeyd yanaşmasıdır və bir çox halda məsuliyyəti dərk etməməkdən irəli gələn məsələdir. Biz bu gün də dərk edib anlamalıyıq ki, karantin rejimini hətta postpandemiya dövründə belə özümüzün həyat tərzinə çevirməliyik. Çünki nə qədər ki, bu ümumbəşəri bəla, epidemiya problemi aradan qaldırılmayıb, biz vətəndaşlar məsuliyyətlə karantin rejimini bir həyat tərzi kimi qəbul edib ona əməl etməliyik. Buna əməl etmədikcə və laqeyd, eyni zamanda, məsuliyyətsiz yanaşdıqca, əlbəttə, yoluxma halları 70 də olacaq, 80 də. Bu çox ciddi məsələdir. Təəssüf ki, insanlar məsuliyyətsiz davranaraq, bu problemin ciddiliyini nəzərə almaq istəmirlər. Fürsətdən istifadə edib demək istəyirəm ki, bizim qeyri-hökumət təşkilatları da, vətəndaş cəmiyyətinin təmsilçiləri də, KİV nümayəndələri də bütün vasitələrdən istifadə edərək, çox geniş maarifləndirmə tədbirləri həyata keçirir, amma görürsünüz ki, yumşalma ilə bağlı qərar verilən kimi bəzi vətəndaşlar bundan sui-istifadə edirlər. Əgər istəyiriksə əvvəlki həyat tərzimiz bərpa olunsun, iş səviyyəsi tam qaydasına düşsün, onda vətəndaşlar yumşaldılma qərarından sui-istifadə etməməlidirlər. Vətəndaş məsuliyyətsizliyi, sözsüz ki, yoluxmanın artmasına, eləcə də əvvəlki sərt karantin rejiminin qayıtmasına gətirib çıxara bilər. Biz bunların hamısından nəticə çıxarmalıyıq. Yoluxma artırsa, bu, karantin rejiminin sərtləşdirilməsinə gətirib çıxarır".

R.Zeyninin sözlərinə görə, vətəndaşlar bütün qaydalara tam əməl etməli, "evdə qal", sosial təcrid, eləcə də digər məsələləri əsas götürməlidirlər. "Biz birlikdə güclüyük" çağırışına hər bir vətəndaşın əməl etməli olduğunu deyən R.Zeyni hesab edir ki, biz məsuliyyətimizlə, təmkinimizlə, qərarlara əməl etməyimizlə bu epidemiyaya qalib gələ bilərik.

"Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, tanınmış sosioloq Əhməd Abbasbəylinin fikrincə də vətəndaşlar karantin rejiminin yumşaldılmasından sui-istifadə etməməlidirlər. Onun sözlərinə görə, insanlar sosial məsafə saxlamaq məsələsində daha ciddi olmalıdırlar. Dövlətin həyata keçirdiyi antivirus tədbirlərinin koronavirusun məhvi ilə nəticələnməsinə ictimaiyyətin qaydalara əməl etməklə cavab verməsinin vacib olduğunu qeyd edən Ə.Abbasbəylinin fikrincə, insanların çoxu bu virusu ciddiyə almaq istəmir: "Karantin rejiminin yumşaldılması ilə əlaqədar olaraq vətəndaşlar bəzi qaydalara əməl etmək istəmirlər. Bu gün avtobuslarda mövcud olan sıxlıq, sosial məsafənin qorunmaması və s. məsələlər ciddi problemlər yaradır. İnsanlar yenə də sosial izolyasiya qaydalarına əməl etməli, sosial məsafəni qorumalıdırlar. Ümumiyyətlə, avtobus sürücüləri özləri artıq sərnişin götürməkdən imtina etməlidirlər. Şirkətlər xəttə daha çox avtobus buraxmalıdırlar ki, marşrut avtobuslarının salonunda sıxlıq yaranmasın. Hesab edirəm ki, vətəndaşlar səbrlə, təmkinlə, məsuliyyətlə qaydalara əməl etməlidirlər ki, vəziyyət daha ciddi həddə çatmasın".



***Rauf Zeyni:** "Yoluxma artırsa, bu, karantin rejiminin sərtləşdirilməsinə gətirib çıxarır"*

***Əhməd Abbasbəyli:** "Vətəndaşlar səbrlə, təmkinlə, məsuliyyətlə qaydalara əməl etməlidirlər ki, vəziyyət daha ciddi həddə çatmasın"*

A.Abbasbəyli, həmçinin, qeyd etdi ki, koronavirusdan qorunma ilə bağlı maarifləndirmə işi aparan mütəxəssislərin bəzən bir-birinə zidd açıqlamalar verməsi insanların çaşqınlığına səbəb olur. "Mən prosesi bütün ölkələr üzrə yaxından izləyirəm, beynəlxalq aidiyyəti qurumların, həmçinin, dünya və Azərbaycan alimlərinin məsələyə yanaşmasını müşahidə edirəm. Bu gün virusdan qorunmağın əsas üsullarından biri kimi maska və əlcəkdən istifadə etmək, əlləri tez-tez spirtləmək, həmçinin də yumaq, sosial məsafə saxlamaq və sair tövsiyə edilir. Amma bəzən görürsən ki, həm dünya alimləri, həm də yerli mütəxəssislər deyirlər ki, spirt, maska, əlcək insanları virusa yoluxmaqdan xilas etmir. Başqa bir alim bunun əksini deyir. Təəssüf ki, bu istiqamətdə maarifçilik işi aparan mütəxəssislərin bəziləri əhaliyə ziddiyyətli məlumatlar verirlər. Bu arzuolunmaz hal da insanlarda çaşqınlıq yaradır. Bütün bunlara baxmayaraq, vətəndaşlarımız dövlətin mövcud qərarlarına əməl etməlidirlər" - deyə Ə.Abbasbəyli vurğuladı.

***İradə SARIYEVA***

# Avropanın qaz bazarı yenə Azərbaycanın ümidinə qaldı

**Belə görünür ki, cari ilin sonunda Avropanın yeni mənbədən təbii qaz alacağı ölkə qismində yalnız Azərbaycan çıxış edəcək. Ən azı o baxımdan ki, bu il ərzində məhz Azərbaycandan Avropaya qaz nəqli mümkün olacaq. Ölkəmizdən Avropya uzanan yeni qaz kəməri olan "Cənub qaz dəhlizi"nin son halqası TAP da artıq tamamlanmaq üzrədir.**



Artıq ilin sonuna kimi "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazının Avropa bazarlarına daxil olması gözlənilir. Xatırladaq ki bu ilin sonuna kimi Rusiya qazı da "Şimal axını-2" qaz kəməri vasitəsilə Avropa bazarına çatmalı idi. Amma ABŞ sanksiyaları və bir sıra Avropa ölkələrinin addımları tamam fərqli vəziyyət yaradır. Bu arada "Şimal Axını-2" kəməri üçün daha bir əngəlin yarandığı üzə çıxıb. Belə ki, Polşa və Danimarka Baltik dənizində "Baltic Pipe" qaz kəmərinin çəkilməsi üzrə işlərin yerinə yetirilməsi ilə bağlı müqavilə imzalayıb. Tikinti işləri Polşaya təxminən 280 milyon avroya başa gələcək. "Baltic Pipe" qaz kəməri Norveç qazını Polşaya nəql edəcək. Məlumata görə, "Gaz-System" və "Saipem Limited" şirkətləri Baltik dənizində qaz kəmərinin çəkilməsi üzrə işlərin yerinə yetirilməsinə dair müqavilə imzalayıb. Polşa hökumətinin strateji enerji infrastrukturu məsələləri üzrə müvəkkili Pyotr Naimski qeyd edib ki, müqavilənin imzalanması təkcə tikintiyə lazım olan bütün icazələrin alınmasını yox, həm də layihənin icrasına başlanılmasını nəzərdə tutur. O, sərmayədarların artıq podratçılarla müqavilələr bağladığını və kompressor stansiyalarının tikintisi və ya genişləndirilməsi üçün lazım olan texniki komponentləri aldığını vurğulayıb. Qrafik üzrə ilk işlər 2020-ci ilin ikinci yarısında başlamalıdır. "Baltic Pipe" kəməri "Şimal axını-2"nin çəkilməsi planlaşdırılan ərazidən keçir və onların magistralları kəsişir. Elə bu da "Şimal axını-2" üçün daha bir əngəl deməkdir. Digər tərəfdən, bir müddət əvvəl Stokholm Arbitraj Məhkəməsi "Qazprom"un Polşanın PGNİG şirkətinə kompensasiya ödəməsi barədə qərar çıxarıb. İndi Polşa bildirir ki, PGNİG şirkəti "Qazprom"dan Stokholm Arbitraj Məhkəməsinin müəyyən etdiyi vəsaitləri almasa, Varşava "Şimal axını-2" qaz kəmərinin aktivlərinə həbs qoymağa cəhd edə bilər. Polşa Dövlət Aktivləri nazirinin müavini Yanuş Kovalski bu xüsusda deyib:"Hər şeydən öncə "Şimal axını" və "Şimal axını-2" şirkətlərinin səhmlərinə həbslər qoyula bilər. Bu, öz növbəsində, qaz kəmərinin ikinci xəttinin inşası prosesini dayandıra bilər". Rusiya isə bu vəsaiti ödəməkdən imtina etdiyi üçün yaranmış durumun da "Şimal axını-2"nin çəkilişinə əlavə əngəl yaratması qaçılmaz sayılır.

Üstəlik, ABŞ-ın "Şimal axını-2" kəmərinə qarşı sanksiyaları da layihə üçün əlavə əngəl sayılır. Bu durumda, Rusiya prezidenti Vladimir Putinin sözlərinə görə, qaz kəmərinin tikintisi və işə salınması gələn ilin birinci rübünə qədər başa çata bilər. O vurğulayıb ki, Moskva xarici tərəfdaşları cəlb etmədən qaz kəmərini özü tikib başa çatdıra biləcək və yeganə sual tarixlərlə bağlıdır. Lakin bəzi Qərb dövlətlərinin mövqeyi layihənin gələn ilin ilk rübündə də başa çatmasını əngəlləyir. Bu vəziyyətdə ABŞ-ın da öz qazını Avropaya satması müşkül görünür. Düzdür, böyük həcmdə maye qaz istehsalına başlayan ABŞ bunun üçün ən yaxşı satış bazarı qismində Avropanı görür. Amma ABŞ-dan maye qazın Avropaya ixracı baha başa gəlir. Digər tərəfdən, regionda rus qazının mövcudluğu ABŞ-ın işini çətinləşdirir. Artıq baha qiymət səbəbindən Avropa ölkələri özü də ABŞ maye qazına böyük maraq göstərmir. Məhz bu vəziyyətdə Avropa üçün indi ən sərfəlisi Azərbaycan qazıdır. Azərbaycan təbii qazını Avropaya çatdıracaq TAP boru kəməri layihəsi üzrə işlərin isə artıq 94,1 faizi tamamlanıb. TAP-ın inşası üzrə "Saipem" şirkətinin "Castoro 6" borudüzən gəmisi isə İtaliyanın San Foka bölgəsində işlərə başlayıb. Gəmi TAP-ın Adriatik dənizindəki 105 kilometrlik hissəsində, yəni İtaliyadan Albaniyayadək hissədə boruları inşa edəcək. TAP-ın quru hissəsində, Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların hamısı torpağa basdırılıb. Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstan, digəri isə Albaniyada olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşası tamamlanıb. Ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Belə ki, Yunanıstandakı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsidir. Həmin prosesin məqsədi boru kəməri infrastrukturunun tamamilə təhlükəsizliyini və işlər başa çatdıqdan sonra istismara hazır olmasını, eləcə də milli və beynəlxalq təhlükəsizlik, həmçinin istismar standartlarına uyğun olmasını təmin etməkdir. Təbii qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2" qazının Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqli 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qaz tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməyə başlanacaq. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

**Xatırladaq ki, TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Perspektivdə Türkmənistan və İran qazının da Azərbaycan üzərindən Avropaya ötürülməsi gündəmdədir.**

***Ramil QULİYEV***

# Hotellərdə yoluxma risqi mənbələrindən birini TƏBİB xəbərdarlıq etdi...

**"Azərbaycanda turizm müəssisələrində və hotellərdə tənəffüs xəstəlikləri simptomları olan qonaqlara həkim tərəfindən baxış aparılana qədər otaqlarında qalmalıdırlar və onlara əsas gigiyena qaydaları haqqında tövsiyələr verilməlidir.**

*"...restoranlara gəlməmişdən əvvəl rezervasiya tətbiq olunmalıdır"*

***Elçin Rüstəmov:** "Hoteldə istirahət edən şəxslərdə koronavirus xəstəliyinə uyğun simptomlar varsa, o şəxslərə dərhal lazımi dəstək göstərilməlidir"*



Rəhbərlik həmin şəxslərin həkim tərəfindən müayinəsini dərhal təmin etməlidir". Bu məlumatlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) turizm və otelçilik sektorunda koronavirus (COVID-19) infeksiyasının idarə olunmasına dair hazırladığı metodiki göstərişlərdə əks olunub.

Qeyd olunur ki, hotellərdə və turizm müəssisələrində yoluxma ehtimalı yüksəkdir. Burada qonaqlar müvəqqəti olaraq yaxın məskunlaşma şəraitində yaşayırlar, öz aralarında və işçilərlə sıx qarşılıqlı münasibətdə olurlar. Məhz bu cəhətlər - qonaqların məskunlaşması ilə bağlı onlara göstərilən xidmətlər (yemək, içki, təmizlik, hər hansı bir fəaliyyətin təşkili və s.) və bu müəssisələrə xas olan qarşılıqlı münasibətlər (qonaq-qonaq, qonaq-işçi heyəti və işçi heyətin öz arasında) xüsusi diqqət tələb edir: "Odur ki, müəssisənin hər bir heyət üzvü Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən verilən COVID-19-a qarşı əsas müdafiə tədbirlərinə, (əl gigiyenası, sosial məsafənin saxlanması, gözlərə, burun və ağıza toxunmamaq, tənəffüs gigiyenasına riayət etmək) və xəstəliyə uyğun simptomlar varsa evdə qalaraq, tibbi yardım üçün müraciət etmək kimi tövsiyələrinə xüsusi diqqət yetirməlidir. Qeydiyyat işçiləri COVID-19 barədə kifayət qədər məlumatlandırılmalıdırlar ki, qarşılarında qoyulan tapşırıqları etibarlı şəkildə, təhlükəsiz yerinə yetirsinlər və müəssisə daxilində COVID-19-un yayılmasının qarşısını alsınlar".

Pandemiya ilə əlaqədar olaraq turizm sektorunda təhlükəsizlik baxımından görülən işlər barədə məlumat verən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov qeyd etdi ki, turizm müəssisəsinin hər bir heyət üzvü Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən verilən COVID-19-a qarşı əsas müdafiə tədbirlərinə riayət etməlidir. O cümlədən, hotellərdə də pandemiya ilə bağlı olaraq lazımi tədbirlər görülməlidir: "Əl gigiyenası, sosial məsafənin saxlanması, gözlərə, burun və ağıza toxunmamaq, tənəffüs gigiyenasına riayət edilməlidir. Hoteldə istirahət edən şəxslərdə koronavirus xəstəliyinə uyğun simptomlar varsa, o şəxslərə dərhal lazımi dəstək göstərilməlidir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, hər yerdə qoruyucu vasitələrdən istifadə, masalar arasındakı məsafələr çoxaldılmalı, adam sayının azaldılması, restoranlara gəlməmişdən əvvəl rezervasiya tətbiq olunmalı, otaq təmizliyi, qeydiyyat masasında və s. gigiyena qaydalarına yenidən baxılmalıdır.

***Günel CƏLİLOVA***

# İctimai nəqliyyatda maska taxmayanların cəzalandırılması...

**Bəzi Avropa ölkələrində karantin rejimi yumşaldığı üçün maska taxmaq məcburi olub. Belə ki, Polşada aprelin 16-dan vətəndaşlara maska taxmaq məcburi xarakter daşıyır. Almaniyada aprelin 27-dən küçəyə çıxan şəxslər məcburən maska taxırlar. Ehtimal ki, maska taxmaq məcburiyyəti qadağaların yumşalması ilə bağlıdır.**

***Adil Qeybulla:** "İctimai nəqliyyatda maska taxmaq məcburi olmalıdır"*



Məlumdur ki, mayın 4-dən etibarən Azərbaycanda da karantin rejimi yumşaldılıb. Karantin rejimi yumşaldığı üçün müəyyən səbəblərdən küçəyə, harasa gedənlər ictimai nəqliyyatdan istifadə etməli olur. İctimai nəqliyyatdan istifadə edən şəxslərin məcburi tibbi maska taxması müzakirə olunur.

Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, vətəndaşların ictimai nəqliyyatda maskalardan istifadə etməməsi ilə bağlı cərimələr müzakirə olunur: "Bununla bağlı müzakirələr başa çatandan sonra qərar veriləcək. İctimai nəqliyyatda maskalardan istifadə etməməklə bağlı cərimə tətbiq oluna bilər".

Bakı Nəqliyyat Agentliyinin rəhbəri Vüsal Kərimli də media nümayəndələrinə açıqlamasında qeyd edib ki, ictimai nəqliyyatda tibbi maska taxmaq zəruridir və tələb olunur: "Bu məsələnin cərimələnmə mexanizmi ilə bağlı Operativ Qərargah yaxın günlərdə açıqlama verəcək".

Ekspertlər də tək ictimai nəqliyyatda deyil, qapalı məkanlarda maska taxılmanın məcburi olduğunu düşünürlər.

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, maska taxmaq məcburi olmalıdır: "Çünki xəstəliyi yüngül keçirən insanlar var ki, onlarda müəyyən simptomların olması mümkündür. Hətta simptomsuz virusgəzdirənlik ola bilər. Həmin insanlar xəstəliyin hansısa əlamətini özündə hiss etməsə də, virus ifraz etməkdə davam edirlər. Bu baxımdan hər bir insan təhlükəlidir. Ona görə də karantin rejimi bitəndən sonra Azərbaycanda da müəyyən müddətdə insanların maska taxması məcburi olmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, virusların əksəriyyəti havadamcı yolu ilə yayılır. Maskalar isə havadakı virusları keçirtmədiyi üçün effektlidir. Bu maskalar virusların yayılmasının qarşısını almaqda xüsusi kömək etmiş olur. Lakin maskalardan daimi istifadəyə ehtiyac yoxdur: "İnsanların kütləvi olduğu yerlərdə, ictimai nəqliyyatda, metroda və s. taxmaq lazımdır. Bəzən insanlar xəstə olarkən ev şəraitində də maskadan istifadə edirlər. Evdə qoruyucu maska taxmağa ehtiyac yoxdur. Onun əvəzində otağın havasını dəyişmək, otağa gün işığının düşməsini təmin etmək lazımdır"..

***Günel CƏLİLOVA***

№ 73 (4204) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 MAY 2020-ci il

# Gözün beyinə göndərdiyi naməlum siqnal...



**Alimlәr gözümüzdәn beyinә gedәn bir siqnal kәşf etdilәr. Bu siqnal mәhdudlaşdırıcı bir mәzmuna sahibdir.**

Bu funksiyanın şüuraltı sәviyyәlәrә tәsir etdiyi deyilir. Uzun illәr boyunca biologiya dәrs kitablarında "Gözümüz beynimizlә yalnız bir növ siqnal yolu ilә ünsiyyәt qurur" mәlumatını gördük. Yaxın zamanlarda aparılan araşdırmaya baxılsa, torlu qişanın bәzi neyronları daha az istifadә edilәn bir yolu seçir. Şimal-qәrb (Northwestern) Universitetindә aparılan araşdırmaya görә, torlu qişanın bәzi neyron çoxluqları beynә mәhdudlaşdırıcı siqnallar göndәrir. Bundan әvvәl alimlәr gözün beyinә yalnız xәbәrdaredici siqnallar göndәrdiyini düşünürdülәr. Xәbәrdaredici siqnallar neyronları daha çox xәbәrdar edәrkәn, mәhdudlaşdırıcı siqnallar neyronları daha az xәbәrdar edir. Universitetin araşdırma qrupu bu mәhdudlaşdırıcı siqnalların şüuraltı davranışlara müdaxilә etdiyini kәşf etdi. Mәsәlәn, bioloji ritmimizin işıqlıq vә qaranlıq dövrlәrә sinxronizasiyası vә parlaq işıqda göz bәbәklәrimizin kiçilmәsi bu şüur xarici davranışlar arasında iştirak edir. Bu neyronların necә işlәdiyini daha yaxşı anlayaraq işığın davranışlarımıza necә tәsir etdiyinә bağlı daha çox mәlumat әldә edә bilәrik.



## Günəşin tac quruluşu ilk dəfə göstərildi

**Gündәmimiz koronavirusdan başqa bir şey deyilkәn, alimlәr kosmosun dәrinliklәrindәki araşdırmalarına davam edirlәr.**

Bu әhatәdә kainatın da әn sirli vә maraqlanılan nәhәng ulduzu olan Günәş haqqında yeni mәlumatlar kәşf edildi. Günәş sistemindәki tac quruluşu ilk dәfә göstәrildi, bu isә elm dünyasında hәyәcan oyandırdı. Göstәrilәn bu Günәş sisteminin tәfәrrüatları NASA-nın 2012-ci ildә Günәşin atmosferini araşdırmaq üçün göndәrdiyi bir alt orbit teleskopu olan High-Resolution Coronal Imager (Yüksәk hәllolma әmsallı tac göstәrici) ilә ortaya çıxır. Dünyadakı ilk quru dәliyin fotoşәklinin çәkilmәsi kimi bu da illәrlә davam edәn bir işin әsәri olaraq qarşımıza çıxır. Günәşin maqnetik plazma iplikләri (tac quruluşu) әtraflı bir şәkildә görünür. Günәş sisteminin tac quruluşu haqqında daha çox şәrh edә bilәn elm insanları eyni zamanda aktiv xarici lay haqqında daha yerindә şәrhlәr edә bilәcәklәr.

## Elan

Şәki şәhәr sakini Sәmәdova Әsmayә İsa qızının adına verilmiş 9186/ 3279 saylı torpaq qeydi sәnәdi itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Zunud kәnd sakini İbrahimxәlilov Mehman Yәhya oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 118 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Zunud kәnd sakini İbrahimxәlilov Sübhan Mehman oğlunun adına, Şәki şәhәr 8 saylı mәktәb tәrәfindәn verilmiş tәhsil haqqında şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.

## Koronavirusun episentrində yeni vahimə...

**Koronavirusun hazırkı episentri sayılan ABŞ-ı "qatil arı" vahimәsi bürüyüb. "Oxu.az" xәbәr verir ki, ABŞ-ın Vaşinqton ştatında müşahidә edilәn ölümcül arı növlәrinin ölkәnin şәrqinә çatmasına az qalıb.**

Mütәxәssislәr arıların ABŞ-a Çindәn idxal olunan yük vasitәsilә gәldiyini iddia edirlәr. Asiyaya mәxsus bu arı növünün hәr il Yaponiyada 50 nәfәrin ölümünә sәbәb olduğu bildirilir. Arının ağzının çox böyük vә kәsici olduğunu qeyd edәn mütәxәssislәr yaxın 2-3 ildә bu hәşәratların ölkәnin şәrq sahillәrinә, yaşıllığın bol olduğu Nyu-Yorka çata bilәcәyini deyirlәr:

"Arıların buraya normal yolla gәlmәsi üçün illәr lazım ola bilәr, ancaq kiminsә yük maşınının arxasına yuva qoysalar, dörd gün kifayәt edir. Hәr halda, hәmin arıların ABŞ-da daimi qalacağı görünür".

Vaşinqton Dövlәt Universitetinin mütәxәssislәrinin dediyinә görә, uzunluğu beş santimetrә çatan bu arılar iki dәfә ardıcıl sancdıqları insanı öldürә bilirlәr. Buna görә dә nәhәng hәşәratların lәqәbi "qatil arı"lardır.

## Koronavirus bağırsaq hüceyrələrini yoluxdura bilir

**Koronavirus (SARS-CoV-2) bağırsaq hüceyrәlәrini yoluxdura vә içindә çoxala bilir, bu sәbәbdәn dә infeksiya yalnız hava damcısı ilә deyil, hәm dә müxtәlif yollarla yayıla bilәr.**

"Axar.az" xәbәr verir ki, bu barәdә niderlandlı alimlәrin araşdırmasında qeyd edilib. Mәlumata görә, alimlәr koronavirusun insan bağırsağı hüceyrәlәrindә tәsirini izlәyәrәk, orqanoidlәrә koronavirus әlavә edildikdә sürәtlә yoluxmuş hüceyrәlәrin çoxaldığını müәyyәnlәşdiriblәr.

Mütәxәssislәr koronavirusa tutulan xәstәlәrin әksәriyyәtindә ürәk bulanması vә ishal kimi simptomların göründüyünü, hәmçinin, xәstәlәrdәn götürülmüş nәcis nümunәlәrindә virus hissәciklәrinin aşkarlandığını bildiriblәr. Bu da virusun çirkli әllәr vasitәsilә ötürüldüyünü göstәrir.





**Qoç** - Dәyәrli әşyaların itirilmәsi, yaxud havayı yerә xәrclәr mümkündür. Yaxşı olar ki, qadınlarla sövdәlәşmәlәrdәn çәkinәsiniz. İstәnilәn mәsәlәni, xüsusilә iş vә ya biznesә aid problemlәri öz cinsinizdәn olan insanlarla müzakirә etmәyә çalışın.



**Buğa** - Evdә böyük tәmizlik, mebellәrin yerinin dәyişdirilmәsi, mәtbәxdә eksperimentlәr sizi yaman cәlb edir. Amma unutmayın ki, bunlardan hansı birinisә etmәk fikrinә düşsәniz, hәddәn artıq yorula bilәrsiniz, çünki entuziazmınız "yandığı" sürәtlә dә "sönәcәk".



**Әkizlәr** - Baxmayaraq ki, xırda anlaşılmazlıqlar olacaq, ümumilikdә uğurlu gündür. İş burasındadır ki, problemlәr hәlә inkişaf etmәyә macal tapmamış siz onları hәll etmәyә müvәffәq olursunuz.



**Xәrçәng** - Xoş vә maraqlı gündür. Bu әrәfәdә başlanan xoş hadisәlәr davam etmәkdәdir. Yeni, parlaq ideyalarınız var. Heç kömәk ummadığınız insanlar planlarınızı hәyata keçirmәkdә sizә kömәk edirlәr.



**Şir** - Çox nüfuzlu adamların diqqәtindә olacağınıza ümid edә bilәrsiniz. Onlara yaxşı tәәssüratlar bәxş etmәk sizә çәtin olmayacaq. Mәhz qәfil peyda olan fikirlәr bu gün uğur qazanacaq.



**Qız** - Gün yaxşı keçәcәk. Xırda anlaşılmazlıqlar, narazılıqlar, qanqaraçılıqlar geridә qalır. Siz yalnız diqqәt tәlәb edәn mәsәlәlәrә köklәnirsiniz. Sevdiyinizin qayğısına qalın.



**Tәrәzi** - Gәrgin vә qarışıq vәziyyәt düzәlәcәk. Sakitlәşәcәk, özünüzü daha rahat hiss edәcәksiniz. Ailә üzvlәrinizlә dә ümumi dil tapmaq asan olacaq, fikir ayrılıqlarına son qoyacaqsınız.



**Әqrәb** - Sәhәr heç dә xeyirә açılmır. Әhvalınızı yaxşı adlandırmaq olmaz, yaxınlarınız da heç istәmәdәn lap odun üzәrinә yağ tökürlәr. Qәfil xәrclәr gözlәnilir. Pullardan әl çәkmәk xoşunuza gәlmәyәcәk.



**Oxatan** - Ehtiyatlı olun. Günün birinci yarısı çox gәrgindir. Yaxınlarınızla mübahisәlәr gözlәnilir vә sәbәbindәn asılı olaraq onlar çox ciddi ola bilәrlәr. Öz rәyinizi çox kәskin formada bildirir vә sizinlә razı olmayanlardan küsürsünüz.



**Oğlaq** - Bir çoxları, hәtta әn ciddilәr belә, yüngüllüyә meyl edirlәr. Ailәdә, yaxınlarla münaqişәlәr mümkündür. Emosiyalar aşıb-daşır vә әksәriyyәt onların öhdәsindәn gәlә bilmir.



**Dolça** - Bu gün yaman eqoistsiniz, öz istәk vә tәlәblәriniz sizin üçün birinci sıradadır. Başqalarının da nәsә istәmәsi, nәyәsә can atması, sadәcә, dincәlmәk, istirahәt etmәk ehtiyacı isә sizi qәtiyyәn maraqlandırmır.



**Balıqlar** - Bütün gün әrzindәn mәnfi tendensiyaların tәsirini hiss edәcәksiniz. Odur ki, vacib qәrarlar vermәyin. Ancaq yaxşıca düşünülmüş ehtiyatlı hәrәkәtlәr istәdiyiniz nәticәni әldә etmәyinizә imkan verәr.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Bu göyərti təzyiqi salır...

**Sәbzәlәrdә olan falavonoid kversetin yüksәk tәzyiqi salmağa qadirdir.**

"Medicina.az" bildirir ki, Çin Tibb Universitetinin bir qrup alimi yeni elmi tәdqiqatın nәticәsi olaraq sübut edib ki, göyәrtilәrdәn ispanaq tәzyiqi sala bilir. Belә ki, tәcrübә zamanı 900 nәfәr xәstәyә kversetinlә zәngin bu bitki tәrkibli qidalar verilib: alma, üzüm, qarağat, kәlәm, pomidor, ispanaq, çay.

Onlar 4 hәftә boyu qrup şәklindә bu qidaları qәbul ediblәr. Mәlum olub ki, kversetin yuxarı tәzyiqi 3,09 ml, aşağı tәzyiqi isә 2,86 ml salır. Arterial tәzyiqin 10 ml azalması ürәk infarktı vә insultu 50% azaldır. Bu tәcrübәnin sonunda daha çox ispanağın tәzyiqi yaxşı saldığı sübut olunub. Ona görә yüksәk tәzyiqi olanlara hәr gün ispanaq yemәk tövsiyә olunur.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.